# ƏBU HAMİD QƏZALİ
# «EY OĞUL»

*Tərcümə, ön söz və giriş*
*məqalələrin müəllifi:* **İradə Zərqan**

Bakı – “Təknur” – 2011

**AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu Elmi şurasının 24 yanvar 2011-ci il tarixli iclasının 1 saylı qərarı ilə çap olunur.**

***Türk dilindən tərcümə edən,***
***ön sözün və giriş***
***məqalələrin müəllifi:*** *fəlsəfə doktoru* **İradə Zərqan**

***Elmi redaktor:*** *fəlsəfə elmləri doktoru* ***Arzu Hacıyeva***

***Rəyçilər:*** *fəlsəfə elmləri doktoru* ***Aydın Əlizadə***
*fəlsəfə doktoru* ***Mətanət Şəkixanova***
*fəlsəfə doktoru* ***Elsevər Səmədov***

**Əbu Hamid Qəzali «Ey oğul»** Tərcümə edən:
***İradə Zərqan.*** *Bakı: «Təknur», 2011, 80 səh.*

*Kitabda İslam mədəniyyəti, fəlsəfə və ictimai fikir tarixinin görkəmli nümayəndəsi, dünyada İmam Qəzali adı ilə məşhur olan nüfuzlu İslam alimi və filosofu Əbu Hamid Muhamməd Qəzalinin (1058-1112) «Ey oğul», və «Hökmdarlara nəsihət» əsərlərindən müəyyən hissələrin tərcüməsi verilmişdir.*

*İslam dəyərlərinə sədaqət və əməlinə görə Hüccətülislam, Zeynədddin titullarını qazanmış Əbu Hamid Qəzalinin hikmət xəzinəsindən Azərbaycan dilinə tərcümə edilmiş fikir və ideyalarda insanın mahiyyət və xisləti, onun kamilləşmə yolları, dünya qarşısındakı məsuliyyəti önə çəkilir, dünya və axirət səadətinə nail olma yolları göstərilir.*

**ISBN: 978-9952-445-19-0**

**© İradə Zərqan - 2011**
**iradazargan@gmail.com**

# MÜNDƏRİCAT

Kitab haqqında rəylər ............................................5

## I fəsil. Əbu Hamid Qəzalinin həyatı və əsərləri

Təqdimat ..............................................................7
Muhamməd və Əhməd ..........................................8
İlk addımlar .......................................................10
Tədris illəri .........................................................11
İctimai-siyasi durum ............................................12
Şəxsiyyət ............................................................15
Sufiliyə qədərki dövr ..........................................16
Keçid ...................................................................16
Sufi .....................................................................18
Şeirə münasibət ...................................................23
Əks-səda .............................................................24
Bir faktın tarixçəsi ...............................................27
«1000-dən 1 əskik», yaxud 400 kitab ..................28
Əbədiyyət ............................................................33
Oxuculara müraciət .............................................34
İstifadə olunmuş ədəbiyyat .................................37

## II fəsil. Əbu Hamid Qəzalinin «Ey oğul» («Eyyhəl-vələd») kitabından hissələrin tərcüməsi.

Tərcüməyə ön söz ..................................................39

Ey oğul (Əyyuhə’l - vələd) Əsərin yazılma tarixçəsi ....................................................................41
Boş şeylərlə məşğul olmağın zərərləri ..................42
Bildiyinə əməl etmək ...........................................43
Qəzalinin səkkiz öyüdü ........................................45
Xatırlatma («təzkir») – zikr .................................49
Dörd əməli məsləhət ............................................53

## III fəsil. Əbu Hamid Qəzalinin «Hökmdarlara nəsihət» («Nəsihətul-muluk») kitabından hissələrin tərcüməsi.

Bir təfərrüat yaxud «Hökmdarlara nəsihət»in tarixçəsi ..............................................56
Filosofların hikmətləri barədə .............................58
Ağıl və ağıllı insanların üstünlüyü haqqında ........73

## *KİTAB HAQQINDA RƏYLƏR*

I

İradə Zərqanın tərtib etdiyi «Əbu Hamid Qəzali: «Ey oğul»» adlı kitab bir-neçə məziyyətinə görə çapa tövsiyə olunur:

- Orta əsrlərdə yazıb-yaratmasına baxmayaraq Qəzalinin (1058-1112) əsərlərində müasir dövrdə də aktual olan fəlsəfi-etik müddəalar, dəyərli kəlamlar, ibrətamiz nəsihətlər vardır.
- Tərcümə materiallarında təlim-tərbiyə, əxlaq, sosial-siyasi əhəmiyyətli fikir və mülahizələr öz əksini tapmışdır.
- Görkəmli islam alimi, sufi-filosof Əbu Hamid Qəzalinin «Ey oğul» və «Hökmdarlara nəsihət» əsərlərindən müəyyən hissələrin Azərbaycan dilinə edilmiş tərcüməsinə ön söz və giriş məqalələr də əlavə olunmuşdur ki, bu da nəinki mütəfəkkirin dini-fəlsəfi mülahizələri, habelə zəngin yaradıcılıq yolu ilə tanış olmağa imkan verir.

Qeyd olunanları nəzərə alaraq Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Dinşünaslıq və mədəniyyətin fəlsəfi problemləri şöbəsinin elmi işçisi İradə Zərqanın «Əbu Hamid Qəzali: «Ey oğul»» kitabının çap olunmasını tövsiyə edirəm.

Bəzi tədqiqatçıların peyğəmbərlə müqayisə etdikləri bu dahi şəxsiyyətin əsərlərindən müəyyən hissələri tərcümə etmək çox azdır. Onun dini-fəlsəfi fikrin zənginləşməsinə təsiri olmuş qiymətli əsərlərinin bütövlükdə tərcüməsinə ehtiyac vardır. İşin davamına ümid edirik.

*AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Fəlsəfə və ictimai fikir tarixi şöbəsinin aparıcı elmi işçisi fəlsəfə elmləri doktoru* ***Arzu Hacıyeva***

II

İctimai-tarixi proseslər, dövrün tələbləri dəyişsə də, insanların həyatında fəlsəfi düşüncələrin, mənəvi-etik problemlərin əhəmiyyəti azalmır. Həyat və yaradıcılığını insanın ruh-cisim vəhdətinin tarazlığının təmin olunması yollarının tədqiqinə həsr edərək cəmiyyətin rifahına çalışan mütəfəkkirlərdən biri - Əbu Hamid Qəzalinin (1058-1112) ideya irsi bu gün də aktualdır.

«Ey oğul» mütəfəkkirin həcmcə kiçik, lakin çox yayılmış risaləsidir. Əsər maddi-mənəvi dəyər nümunəsi kimi Birləşmiş Millətlər təşkilatı, YUNESKO tərəfindən bir-neçə dəfə ingilis, fransız, alman, ispan və digər qərb dillərinə tərcümə edilərək dünyanın müxtəlif ölkələrində tanıdılmışdır. Ölkəmizdə «Ey oğul» və «Hökmdarlara nəsihət» əsərlərindən müəyyən hissələrin Azərbaycan dilinə tərcümə edilməsi təqdirəlayiq bir haldır. «Ey oğul» görkəmli islam aliminin zəngin dünyagörüşünün qısa xülasəsəsi, müdrik və yaradıcı şəxsiyyətin gənclərə müraciətidir. Hələ orta əsrlərdə qələmə alınmasına baxmayaraq, «Hökmdarlara nəsihət» əsərində də günümüzdə aktuallığını itirməyən sosial əhəmiyyətli fikir və mülahizələr vardır.

Qeyd olunanları nəzərə alaraq, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Dinşünaslıq və mədəniyyətin fəlsəfi problemləri şöbəsinin elmi işçisi İradə Zərqanın Əbu Hamid Qəzali: «Ey oğul»» adlı kitabının çap olunmasını tövsiyə edirəm. Müəllifə elmi fəaliyyətində daha böyük uğurlar arzulayıram.

*AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Dinşünaslıq və mədəniyyətin fəlsəfi problemləri şöbəsinin aparıcı elmi işçisi fəlsəfə elmləri doktoru* **Aydın Əlizadə**

# Əbu Hamid Qəzalinin həyatı və əsərləri

## Təqdimat

Dünya ictimai fikir tarixində İmam Qəzali kimi məşhur olan Hüccətül-İslam Zeynüd-din Əbu Hamid Muhamməd ibn Muhamməd əl-Qəzali (yaxud əl-Qəzzali) ət-Tusi əş-Şafii 1058-ci ildə Təbəran vadisində, qədim Tus (Məşhəd) şəhəri yaxınlığındakı Qəzalə kəndində anadan olmuşdur.

Tədqiqat əsərlərində Qəzalinin təvəllüdü müxtəlif cür göstərilir. Qərb elmi mənbələrində və Azərbaycan fəlsəfi ədəbiyyatında bu görkəmli şəxsiyyətin yaşam tarixinin miladi təqvimlə 1059-1111-ci illər (25, 617; 27, 137; 11, 135; ...), bəzən də 1058-1111-ci illər (18, 11; 28, 112; 8, 188; 10, 135; 12, 379, …) olduğu bildirilir. Bir çox ərəbdilli müəlliflər, bəzi türk tədqiqatçıları və özbək alimi, professor A.M.Boqoutdinov Məhəmməd Qəzalinin 1058-1112-ci illərdə yaşadığını göstərmişdir (21, c. 1, 292; 24, 5, 10; …).

Halbuki bütün bu fərqlərə baxmayaraq, həmin tarix demək olar ki, bütün mənbələrdə hicri təqvimi ilə 450-505-dir. Bu faktı əsas götürərək, hicri təqvimindən miladi təqviminə keçmək üçün mövcud riyazi qaydaya əməl etdikdə ($\underline{450}_{h}$ : 33 ~14; 450 – 14+ 622 = $\underline{1058}_{m}$; $\underline{505}_{h}$ : 33 ~15, 505 – 15 + 622 = $\underline{1112}_{m}$) 1058-1112 alınır. Hesab edirik ki, onun dünya həyatı 1058-1112-ci illəri əhatə edir.

«Böyük Sovet Ensiklopediyası»nda Qəzalinin fars mənşəli olması qeyd olunur (25, 617). Lakin həmin məlumatın götürüldüyü mənbəni tapmaq, təəssüf ki, mümkün olmamışdır. Zənnimcə Qəzalinin əsərlərinin ərəb və fars dillərindəki nüsxələri onun mənşəcə fars olmasını deməyə əsas vermir.

Azərbaycanın Xaqani Şirvani, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Nəsirəddin Tusi, Siracəddin Urməvi, İbrahim Zəncani və başqaları da daxil olmaqla son yüzilliyə qədərki dövrdə yaşamış elmli, ziyalı təbəqəsi, mütəfəkkirlərinin, demək olar ki, hamısı ərəb, fars dillərini öz ana dili kimi bilir, daha geniş auditoriyaya xidmət üçün əsərlərini, əsasən bu dillərdə yazırdılar. Tədqiqat materiallarında Qəzalinin milli mənşəyi haqqında dəqiq məlumat olmasa da, onun öz əsərində bir məsələnin izahında müqayisə üçün başqa dilə (məsələn, fars, yaxud ərəb) deyil, məhz türk dilinə müraciət etməsi maraq doğurur. O, «İhyau ülumid-din» (Anadolu türkcəsində) əsərində yazır ki, Ouranın sirlərini anlamadan təfsirə cəhd edən şəxs, türkcə bir kəlmə bilmədən, turk dilini anladığını iddia edənə oxşayır (21, c. 1, 826). Onun Tusda məskunlaşmış azərbaycanlı olması ehtimalı daha çoxdur və geniş bioqrafik tədqiqat tələb edir.

## Muhamməd və Əhməd

Əbu Hamid Qəzali qədim Tus (Məşhəd) vilayətinin Qəzalə kəndində iplikci («qəzzal») ailəsində anadan olmuşdur. Qəzalinin atası Muhamməd kasıb və savadsız olmasına baxmayaraq elm-irfan əhlinə rəğbət bəsləyərmiş. Lakin övladlarının cəmiyyətdə nüfuz və şöhrət qazanmış şəxsiyyətlər olduğunu görmək ataya nəsib olmamışdır. Hələ uşaqlar kiçik ikən ölümünün yaxınlaşdığını hiss edən ata övladları Muhamməndi və Əhmədi köhnə dostu sufi şeyxi Əhməd ər-Radəğaniyə tapşırır. Çox erkən yetim qalan qardaşlar, çətinliklərə baxmayaraq elm yolunu tutur, bir müddət Əhməd ər-Radəganinin himayəsində yaşayıb ibtidai təhsil alırlar.
Məlumatlara görə Əbu Hamid Qəzalinin qardaşı

Şihabəddin Əhməd ibn Muhamməd əl-Qəzali də fəlsəfi fikir tarixinin görkəmli şəxsiyyətlərindən biri, sufi-alim kimi yetişmişdir. O, hicri 517-ci (miladi 1123) ildə, Brokkelmana görə isə hicri 520-ci (miladi 1126) ildə Qəzvində vəfat etmişdir. 1095-ci ildə Əbu Hamid Qəzali tədrisi tərk edərək guşənişin həyat seçəndə, Əhməd Qəzali Bağdaddakı Nizamiyyə mədrəsəsində qardaşını əvəz edərək vaiz olmuş və onun işini davam etdirmişdir. Əhməd Qəzali Azərbaycan filosofu Abdulla Muhamməd oğlu Miyanəcinin (Eynəlqüzat Miyanəcinin) müəllimlərindən biri olmuşdur. «Lübabül-İhya» («İhyanın qəlbi»), «Əl-təcrid fi kəlimət ət-tovhid» («Tövhid kəlməsinin müstəsnalığı»), «Minhacul-əlbab» («Əl-əlbab əsərinin metodu»), əlyazması Paris kitabxanasında saxlanılan «Risalə fi-fadl əl-fakr vəl–fükara» («Fəqirliyin və fəqirlərin fəziləti haqqında risalə»), «Kitab əz-zahira li əhl əl-bəsira» («Bəsirət əhli üçün əsasnamə»), «Sirrul-əsrar fi kəşfül-ənvar» («Nurların kəşf olunma əsrarının sirri»), «Risalə ayniyyə» («Göz risaləsi»), və s. əsərlərin müəllifidir. Elmi irsi Brokkelman və Tacəddin Sübki («Təbaqət əş-Şafiyyə» əsəri) tərəfindən tədqiq olunmuşdur.

Böyük qardaş Muhamməd o dövrün elm mərkəzi sayılan Gurgana gedərək üç il İmam Əbu Nəsr İsmailinin tələbəsi olmuş, burada fiqhin əsaslarını öyrənmişdir (21, c. 1, XI). Gurgandan qayıdarkən yolda başına gəlmiş bir hadisə Muhammədin həyat məsləkini müəyyənləşdirir: olduğu karvana hücum edən quldurlar onun qeyd dəftərlərini də alırlar. O, quldurbaşına yalvararaq üç illik zəhmətinin, bütün öyrəndiklərinin orada yazıldığını söyləyir və qaytarılmasını xahiş edir. Quldurbaşı istehza ilə qəhqəhə çəkir: - Bilik başda olar, dəftərdə yox! Bir hal-

da ki, dəftərsiz aciz qalırsan, elm öyrəndiyini necə iddia edə bilərsən?.. Qəzali bu hadisədən böyük dərs alır. O, bir soyğunçudan da hikmət əxz etdiyini sonralar əsərində belə qeyd edirdi: «Cənab Haqq, onu məni irşad etmək üçün danışdırmışdı. Tusa qayıdan kimi dəftərlərə yazdıqlarımı hafizəmə elə nəqş etdim ki, onu heç kəs əlimdən ala bilməsin» (20, 8-9). Qəzalinin qənaətinə görə, əsasən kimin dediyinə yox, nə deyildiyinə fikir vermək lazımdır. Deməli, pis hadisədən də yaxşı nəticə hasil etmək olar. Bu, insanın niyyətindən, hadisəyə münasibətindən və Allahın kəramətindən asılıdır (21, c. 1, XII-XIII).

## İlk addımlar

Qəzali Tusa qayıtdıqdan sonra daha məsuliyyətlə çalışmışdır. Təhsilini artırmaq üçün Nişapurda «İmamül-Hərameyn», «Əbul-Məali» adları ilə məşhur olan Ziyaəddin Abdulməlik ibn Abdullah əl-Cüveyninin (1028-1086) müdir olduğu Nizamiyyə mədrəsəsinə daxil olmuş, İslam hüququ, məntiq və kəlam elmlərini mükəmməl öyrənmişdir (12, 137).

Mədrəsədə İran, Azərbaycan, Ərəbistan, Misir və başqa diyarlardan dərs almağa gəlmiş 400 tələbə içərisində 3 nəfər xüsusilə seçilirmiş ki, əl-Cüveyni onlar haqqında yüksək fikirdə imiş: Kiya Hərras, Əhməd ibn Muhamməd əl-Xafi və gənc Qəzali. Cüveyni: «Kiya - qəzəbli şir, Xafi - yanar od, Qəzali-xəzinə dolu dəryadır» - deyirmiş (26, 70). Geniş şərhə ehtiyac duyulmur, müqayisə göz önündədir.

Hələ gəncliyindən Qəzalinin dərin zəkası, sanbalı və mötədilliyi tələbələr arasında və müəllimlərinin nəzərində özünü büruzə verirdi.

Məlumdur ki, o dövrdə xilafətdə məşhur vəzir Nizamülmülkün göstərişi ilə tikilən mədrəsələr elə onun

şərəfinə «Nizamiyyə» adlandırılırdı. O, idarəçiliyi dövründə daim elm, irfan əhlinin qayğısına qalmış, məscid və mədrəsələr açmış, ədaləti və müdrikliyi ilə ad-san qazanmış müsəlman dövlət xadimlərindən biri olmuşdur. Məşhur «Siyasətnamə» əsərinin də müəllifi kimi tanınan Nizamülmülk şair və alimlərə hörmət edər, özü də fars və ərəbcə şeirlər yazarmış. O, keçmiş tələbəlik yoldaşı, sonralar fitnəkar hərəkətlərinə görə təqib olunmuş, «Şeyx əl-Cəbəl», «Həşşaşi» ləqəbləri ilə tanınan batini Həsən Səbbah (hicri 473-518 illərdə yaşamış) tərəfindən bıçaqlanmış, aldığı yaralardan 96 yaşında vəfat etmişdir (21, c. 1, XXII-XXIII).

Məşhur vəzir və dövlət xadimi Nizamülmülk Bağdad Nizamiyyə mədrəsəsinn müdiri Əbu İshaq Şirazinin vəfatından sonra tanınmış zəka sahiblərini bir yerə toplayaraq elmi yarışma təşkil edərkən zənnində yanılmamışdı. Bağdadda təşkil olunmuş həmin elmi yarışmada 26 yaşlı Muhamməd Qəzali məntiqi mühakimələri və parlaq zəkası ilə elm xiridarı olan Nizamülmülkü heyran qoyur və o, Qəzalini Bağdaddakı Nizamiyyə mədrəsəsinə dəvət edir. Məlumatlara görə, Qəzali müəllimi Cüveyniyə bəslədiyi dərin məhəbbət və hörmətə görə, vəzirin dəvətini qəbul etməmiş, bir müddət Nişapurdakı Nizamiyyə mədrəsəsində fəaliyyətini davam etdirmişdir (21, c. 1, XIX).

## Tədris illəri

Nişapur Nizamiyyə mədrəsəsinin müdiri Abdulməlik Cüveyni vəfat edərkən Qəzali - 28 yaşında, muəmələ (rasional) elminin zirvəsinə ucalmış, adı dilləri dolaşan nüfuzlu bir şəxsiyyət, görkəmli ilahiyyat alimi idi. Əbəs deyil ki, onu «Hərameynin (Cüveyni – İ.Z) ən böyük əsəri» adlandırırdılar. Ar-

tıq o zaman Qəzalinin şöhrəti Xorasanı aşaraq bütün Şərqə yayılmışdı və onu müxtəlif yerlərdən müstəqil fəaliyyətə dəvət edirdilər. Qəzali bu ərəfədə Nizamülmülkün növbəti təkidindən sonra Bağdad Nizamiyyə mədrəsəsində müəllim işləməyə razılıq vermişdir (26, 70).

Qəzali, mədrəsədə dərs deyərkən öz tələbələrinə təvazökar olmağı, şöhrətə uyub ifrata varmamağı, sözü əhlinə (sərrafına – İ.Z) deməyi tövsiyə edərdi. O, tələbələrinə: - «İnsanın dərəcəsi biliyi ilə ölçülür. Elmdən daha dəyərli bir şey yoxdur. Sultanlar insanlara hökm edirlər, alimlər isə sultanlara», «Oxu, çünki elm kasıblıqda sərvət, zənginlikdə zinətdir», «Vücudun qidası yemək, qəlbin qidası elm və hikmətdir» kimi dəyərli məsləhətlər verərdi (21, c. 1, 24-26).

Qəzalinin həyat və yaradıcılığında ifrata varmaması, sirlərlə, vəcdlə dolu qəlbini real həyatla məharətlə uzlaşdıra bilmə bacarığı, onu acı aqibətdən dəfələrlə xilas etmişdir. O, deyirdi: «Sirr saxlamaq əxlaqlı olmaqdır... Bəzi sirlər vardır ki, açanın məhvinə, qanının tökülməsinə səbəb olur. Halbuki, onu açmasa, iki şeyə nail ola bilər: 1) qayəsinə qovuşar; 2) lovğalıq və şəhvətdən xilas olar» (19, 96).

## İctimai-siyasi durum

Əbu Hamid Qəzalinin əsərlərinin fəlsəfi dəyərini aydınlaşdırmaq üçün onun yaşadığı dövrün ictimai-siyasi mühitinə nəzər salmaq lazımdır.

X əsrin sonu - XI əsrin əvvəllərində Bağdadda Abbasi xilafətinin hakimiyyəti zəifləməkdə, İspaniyada, Əndəlüsdə İslamın siyasi nüfuzu sarsılmaqda, Səlcuqlar dövlətinin sərhədləri isə genişlənməkdə idi. Misirdə şiə Fatimi xanədanı hakimlik edirdi. Qəzali Səlcuqlar dövlətinin hökmdarları Toğrul

bəy, Alp Arslan və Məlikşah, məşhur vəzir Nizam əl-Mülkün idarəçiliyinin şahidi olmuş, Abdulməlik Cüveyni, Əbu İshaq Şirazi, Mövlana Cəlaləddin Rumi (1207-1273), Ömər Xəyyamla (1040-1123) bir dövrdə yaşamışdır.

«Xaç yürüşləri» başlayanda Qəzali 40 yaşında idi. Bir tərəfdən xarici müdaxilə, digər tərəfdən isə müsəlmanların içərisində gedən təriqət və məzhəb çəkişmələri İslamın iman-əməl birliyini sarsıdırdı (17, 7). O, dövrünün qabaqcıl ziyalısı kimi başverənlərə münasibətini bildirir, Orta əsrlər müsəlman Şərqində xüsusi çəkisi olan dini məzhəb və təriqətlər, peripatetik fəlsəfə, sufizm, ümumiyyətlə, insan, təbiət və cəmiyyət problemlərinin tədqiqi istiqamətində yorulmaq bilmədən çalışırdı.

Qəzali dövrünü səciyyələndirərək yazırdı: «Cəmiyyət xəstələnmişdir. Həqiqi alimlər yox, yalnız təqlidçilər vardır, onlar da şeytana uymuşlar. Bu səbəbdən məruf (yaxşılıq) münkər (pislik), münkər məruf sayılır. Cəmiyyətin başlıca məqsədi tor qurub, haram ovlamaqdan ibarətdir, Allahın Qurani-kərimdə buyurduğu, Muhamməd (s) və ardıcıllarının yolu unudulmuşdur» (21, 3-4). Qəzalinin məramı Muhamməd (s) peyğəmbərin vəfatından keçən müddət ərzində baş verən məzhəb, təriqət parçalanmalarına son qoymaq, elm əhlinin, mütəkəllimlərin, filosofların, sufilərin diqqətini vahid məcraya, ayrıldıqları qına yönəltməyə, «axirət elmini» yaşatmağa cəhd idi.

Qəzalinin yaşadığı dövr cəmiyyətin ictimai-siyasi həyatında ziddiyyətlərin kəskinləşməsi, dini elmlərin hakim dairələrin əlində istismar vasitəsi olması, insanların əksəriyyətinin elmlərdən doğru faydalanmaması, cəmiyyətdə mənəvi tənəzzül ilə xarakterizə olunur. Bir tərəfdən islamla pərdələnən

despotizm, digər tərəfdən isə ifrat azadfikirlilik, sufizmin yanlış qavranılması, ona qeyri-elmi, kütləvi yanaşma hallarının artması, «avam təbəqənin «ənə əl-Haqq» («mən Haqqam»), «Sübhani, Sübhani» («Mən nöqsansızam, günahsızam») kimi böyük ideallara uyaraq gündəlik azuqəyə möhtac qalması» (21, 94-95) və s. cəmiyyətdə mənəvi, sosial-siyasi böhranın yetişməkdə olduğunu göstərirdi. Qəzalinin qeyd etdiyi kimi: «Allahın Qurani-kərimdə buyurduğu, peyğəmbərimizin (s) getdiyi yol unudulmuşdu» (21, 2). Mütəkəllimlərə görə, həqiqətin meyarı Allah kəlamı (Quran ayələri), batinilərə görə, məsumluq (müqəddəslik), filosoflara görə, ağıl, sufilərə görə, mərifət hesab olunurdu və onlar bir-birilərini haqsızlıqda ittiham edirdilər. Qəzali bu dörd firqədən hansının haqlı olduğunu bilmək məqsədilə hər birini ayrılıqda müfəssəl tədqiq etmişdir. Nəticədə Orta əsrlər Müsəlman Şərqinin başlıca nəzəri-ideya axınları olan kəlam, batinilik, fəlsəfə və sufizmi dərindən mənimsəmiş, bu cərəyanların cəmiyyət üçün faydalı cəhətlərini aydınlaşdırmış, eyni zamanda onlar arasında dialoqa nail olmaq üçün hər kəsi «öz dilində danışdırmaq» qərarına gəlmişdir. Bu dövrdə cəmiyyəti mənəvi böhrandan xilas, təlatümləri ram etmək üçün güclü dəlil, ən müxtəlif düşüncə axınlarını ortaq məxrəcə gətirə bilən mükəmməl ideoloji sistemə tələb yaranmışdı. Bütün bunları nəzərdən qaçırmayan Qəzali həmin dörd zümrənin ideya və metodlarını bütün xırdalıqlarına qədər mənimsəmiş, bunların sintezindən çıxış edən vahid, universal ideologiya yaratmağa çalışmışdır.

Elmi mənbə və tədqiqatlarda nahaq yerə onu peyğəmbərlə (s) müqayisə etmirlər (21, c. 1, XXV, 79, 137 ...). Bu zaman ifrata varılsa da, onun məra-

mı həqiqətən peyğəmbər (s) əqidəsinə uyğun idi. Qəzalinin fəlsəfi-etik konsepsiyası cəmiyyətin bütün təbəqələrini birləşməyə, rifaha və tərəqqiyə, qarşılıqlı anlaşmaya dəvət edirdi.

Mürəkkəb və ziddiyyətli bir mühitdə yaşayan Qəzalinin şöhrəti gündən-günə artır, yüksək təbəqəli dövlət adamları, elm, irfan aşiqləri uzaq-uzaq ellərdən hüzuruna gəlir, moizələrinə qulaq asır, mühüm işlərdə ondan müdrik məsləhətlər alırdılar. O, dəfələrlə Xəlifə ilə Səlcuqlar dövləti arasında elçilik etmiş, təmkini və siyasəti ilə anlaşılmazlıqları yoluna qoymuşdu.

Elmi mənbələrdə Məğrib hakimi Yusif ibn Təşfinin, dini və siyasi problemlərin həllində dəfələrlə Qəzalinin məsləhətlərindən faydalanması qeyd olunur. Təşfinin hakimiyyəti illərində Əndəlüs və Məğribdə (Mərakeş) geniş şöhrət qazanmış Qəzalinin əsərləri təəssüf ki, hökmdarın ölümündən sonra, onun bədxahları tərəfindən tamamilə yandırılmışdır» (21, c. 1, XX; 26, 15).

## Şəxsiyyət

Əbu Hamid Qəzali şəxsiyyətini xarakterizə etmək, onun dünyagörüşünün əhatə dairəsini və təsir imkanlarını müəyyənləşdirmək üçün onun öz əsərlərinə nəzər salmaq kifayətdir. Mütəfəkkirin irsi həm ilahiyyat həm fəlsəfə, həm idealizm, həm materializm, həm rasional həm də irrasional aspektlərdə materiallarla zəngindir. Bəzi tədqiqatçılar onun mülahizələrini Platon, digərləri Aristotel, başqaları yeniplatonçuluq ideyaları ilə əlaqələndirirlər. Qəzalinin görüşləri ilahiyyatçıların nəzərində fəlsəfə, filosofların nəzərində ilahiyyatdır. Qəzali zəkası ictimai şüurun müxtəlif imkanları daxilində məntiqi əməliyyatlardan başlayaraq irrasional id-

raka, mistik nurlanmaya qədər açıqdır. Bütün bunlara baxmayaraq, Qəzalinin əsərlərinin, habelə onun haqqındakı tədqiqat işlərinin icmalından məlum olur ki, mütəfəkkirin fəlsəfi irsində iki dövr aydın nəzərə çarpır: 1) sufiliyə qədərki dövr; 2) sufilik dövrü.

## Sufiliyə qədərki dövr

Hələ tələbə ikən yaradıcılığa başlayan Qəzalinin sufilikdən əvvəl yazdığı əsərlər əsasən İslamda şəriət, iman və ibadətə, təriqət və məzhəblərə, hədislərə, etikaya aid idi. Bunlara misal olaraq «Cəvahir əl-Quran» («Quranın cövhərləri»), «Fəzail əl-Quran» («Quranın fəzilətləri»), «Əl-əqidə əl-qudsiyyə», («Müqəddəs əqidə»), «Əd-dürrə əl-fəxira fi kəşf ülum əl-axira» («Axirət elmlərinin öyrənilməsinə dair fəxarətli dürr»), «Kitab əl-məvaiz fil-əhadis əl-qudsiyyə» («Müqəddəs hədislər haqqında moizələr kitabı»), «Risalə fil-movt» («Ölüm haqqında risalə»), «Risalə fi üsul əd–din» («Dinin əsasları haqqında risalə»), «Nüzhətüs-salikin» «Yolçuların səyahəti»), «Kitab fil-ibadət» («İbadətə dair kitab»), «Əl-kitab əl-bəsit fil-füru» («Füru elmi haqqında sadə kitab»), «Əl-mustafa min ilm əl-usul» («Əsaslardan seçmələr»), «Kitab əl-xülasə» («Xülasə kitabı»), «Əl-fətava» («Fitvalar»), «Əl-qanun əl-külli» («Ümumi qanun»), («Əl-ədəb fid-din» («Dini ədəb»), «Kitab eyyuhəl-vələd» («Ey oğul kitabı») və s. əsərləri göstərmək olar.

## Keçid

Qəzali şəxsiyyətində ilahiyyatdan sufizmə keçid dərin psixoloji proseslərlə müşayət olunmuşdur. 1091-ci ildə 34 yaşlı Qəzali Bağdad Nizamiyyə mədrəsəsinin müdiri, «əmmaməsi, cübbəsi, saqqalı,

elmi, fəhmi ilə əsrin yeganəsi olan ilahiyyat alimi» idi və 300-dən artıq tələbəyə dərs deyirdi. Çətinliyi, ixtilafı, müşkülü olanlar ona pənah gətirər, problemlərin doğru çözümünü ondan öyrənməyə çalışardılar (21, c. 1, XXVII). Özü isə daxili narahatlıq, şübhələr içində idi. Çünki əsl həqiqət onun özünə də aydın deyildi, «əmin olmadığı haqqında nə deyə, kimi inandıra bilərdi? Düşünürdü ki, bu halı ilə fəlakətdə, uçurumun kənarındadır …Zahirən şöhrətin zirvəsində olduğu bir məqamda Qəzali daxilində mənəvi boşluq hiss etmiş, həyatın mənasının şöhrətlə bitmədiyini anlamışdır. O, «Əl-münqiz min əd-dəlal» əsərində keçirdiyi ruhi halları belə qeyd edirdi: «…Axirət səadəti üçün yeganə yolun təqvaya (Qurani-Kərimin buyruqlarına sonadək səmimi və sədaqətli olmaq, dünyaya aldanmamaq İ.Z.) sarılmaq, nəfsin tamah və təmənnadan təmizlənməsi olduğunu yaxşı anladım. Bunun təməli isə tərkidünyalıq və axirətə yönəlmədir – Allah-Təalaya uyaraq, nəfsin dünya ilə əlaqəsini kəsməkdir. Deməli, mal və mövqe hərisliyindən uzaqlaşmaq, mənəvi inkişafa mane olan əyləncələrdən üz çevirmək lazımdır. Öz durumuma baxdım, işlərimi təftiş etdim. Onların ən faydalısı tədris və təlim idi. Fəqət, burada da Allahın buyurduğu kimi yox, mövqe və şöhrət üçün çalışmışam. Bu halımla uçurumun kənarında olduğumu anladım. Cox tərəddüd etdim: dünya arzuları zəncirlərilə məni məqam və mövqeyə bağlayır, imanım isə mənə deyirdi: «Köç zamanı yaxınlaşır, ömrün sonuna az qalıb, indiyədək əldə etdiklərin elmə əməl deyil, riya və təqliddir...» (19, 60).

Bu düşüncənin sahibi sıravi insan yox, «hüccətülislam», «zeynəddin» isimləri ilə məşhur nüfuzlu din xadimi, İslam ilahiyyatçısı və fəqihi

İmam Qəzali idi. Tədqiqatçılar Qəzalinin fəlsəfə ilə tanışlıqdan sonra ondan ayrıla bilmədiyini iddia edirlər (26, 83-84; 6, 90; 9, 45). Qəzalinin «mənəvi böhran»ına səbəb isə, İslam dini biliklərinin əzəmətli təsir dairəsindən filosofluğa keçidin psixoloji ağırlığı kimi izah oluna bilərdi. O, Qurani-Kərimin «Allah insanları və cinləri ona ibadət etsinlər deyə yaratdı» ayəsinə inanırdı. Amma ibadətin yalnız təqliddən ibarət olduğuna əmin deyildi. Qəzalinin nəzərincə, təfəkkür və fəaliyyətsiz, şəxsən yaşamadığı mətləbləri həqiqət kimi iddia edən riyakar, kor-koranə təkrarlayan isə təqlidçidir. Mütəfəkkirin düşüncələrindən belə nəticəyə gəlmək olur ki, təqlid idrak prosesinin ilkin, ibtidai mərhələsidir. Özünü dərk etmək istəyən, daha sonra Allahın dərkinə can atan insan nə vaxtsa təqliddən ayrılmalıdır. Bu vaxt kəsiyini təyin edən cəhət isə mənəvi kamilliyin səviyyəsidir.

## Sufi

Qəzali hicri 488-ci il Rəcəb ayından etibarən 6 ay dünya arzuları və axirət düşüncələri arasında çabalayaraq ruhi böhran keçirmiş, bir qərara gələ bilməmişdir. Dərin depressiyadan dili tutulmuş, yemək-içməkdən kəsilmiş, bədəni taqətsiz qalmışdır. Təbiblər dərdinə dərman tapa bilməmişlər. O, yazır: «Bu çarəsiz durumumla Allah-Təalaya sığındım. Allah dualarımı eşitdi: mövqe, sərvət, ailə, övlad, dost kimi şirin dünya bağlarından üz çevirməyimi asanlaşdırdı…» (19, 61-62).

Qəzali 1095-ci ildə Nizamiyyə mədrəsəsindəki tədris fəaliyyətini dayandırmış, Bağdad mədrəsəsi müdirliyini qardaşı Əhməd Qəzaliyə tapşırmış, ailəsi və yaxınları ilə halallaşaraq Həcc ziyarəti

məqsədilə səfərə çıxmışdır (21, c. 1, XXIII). O, əvvəlcə Qüdsə getmiş, «Beytülmüqəddəs»də bir çox peyğəmbərlərin ibadət yeri olan Qübbət əs-Səhrada olmuş, Xəlil ər-Rahməndə (Fələstin) İbrahim peyğəmbərin (s) qəbrini ziyarət etmişdir. Burada hökmdarların hüzuruna getməyəcəyinə, onlardan hədiyyə qəbul etməyəcəyinə, heç kəslə mübahisə etməyəcəyinə and içmişdir. Qəzali Mədinəni, 489/1096-cı ilin Həcc mövsümündə isə Məkkəni ziyarət etmiş, Misir və İsgəndəriyyədə olmuşdur. Elmi mənbələrdə Qəzalinin «Həcc səfəri»nin 11 il davam etdiyi qeyd olunur (21, c. 1, XXIV).

O, bu illər ərzində sufizmin əsl məqsədini dərk etməyə çalışaraq şəxsən mistik hal və məqamları yaşadı, onların həqiqətini, insana bəxş etdiyi hissləri duydu, əsil mahiyyətini anladı - «Həqiqətə sufilərin yolu ilə çatmaq olar» - qərarına gəldi. Qəzali, nəhayət, sufizmin Qur'ana və peyğəmbər ərkanına əsaslanan yaşam tərzi, kamilliyə aparan yol, saf düşüncə forması - elm və mərifətin məxsusi sintezi nəticəsində Allahla ünsiyyət metodu olduğu qənaətinə gəlmişdir (21, c. IV, 608-611).

Qəzali sufizmə olan dərin rəğbətilə yanaşı ondakı ifrat meylləri də görürdü. O, yazırdı: «Sufilərin hallarını sözlə anlatmaq mümkün deyil, xülasə, bir qismi Allaha hülul etdiyini, digəri Allah ilə birləşdiyini, başqası da Allaha vasil olduğunu xəyal edər. Bunu dilə gətirmək xətadır. «Əl-məqsəd əl-aksa» kitabında qeyd etdiyim kimi, bu hallara düşən kəs şairin - «Deyə bilməyəcəyim bir hal vaqe oldu, hüsnü-zənn et, həqiqətini sorma» misrasından başqa bir söz söyləməməlidir» (20, 66).

Mütərəqqi keyfiyyətlərinə, mötədil mövqeyinə baxmayaraq, Qəzaliyə həsəd aparan, düşmənçilik edənlər də vardı. Bəzi tədqiqatlarda Qəzalinin Ni-

zamiyyə mədrəsəsindəki mövqeyini tərk etməsini əleyhdarlarının fitnələri ilə, xüsusən Həsən Səbbahın «fəaliyyəti» ilə bağlayırlar. Təsadüfi deyil ki, həmin dövrdə batinizmin nümayəndəsi kimi tanınan Həsən Səbbah Qəzalinin himayədarı Nizamülmülkə sui-qəsddə günahlandırılırdı. Onun adı fitnə-fəsad törətməkdə, qətllərin təşkilində hallanırdı. Bəzi tədqiqatçılar batinilər əleyhinə əsərlər yazan Qəzalinin, «Həsən Sabbahın fədailərindən qorxaraq» (məsələn, Fərid Jabre), yaxud «öz doğma dayısı Tutuşu öldürtmüş Səlcuq sultanı Bərqyarukdan uzaq olmağa çalışaraq» (D.B.Makdonald və b.) qaçdığını əsaslandırmağa çalışırlar. Türk tədqiqatçısı Ubeydullah Küçük Qərb tədqiqatçılarının subyektiv fərziyyələrini ciddi hesab etməməkdə (21, c. 1, XVIII, XXII-XXIII) haqlıdır.

Beləliklə, Əbu Hamid Qəzalinin mədrəsəni tərk etməsini müxtəlif mənalara yozurdular. Ölkə (İraq) xaricində yaşayanlar Qəzalinin siyasi təzyiqə məruz qaldığını zənn edir, xalq «məşhur alimə göz dəydi» deyirdi. Bağdadın varlı təbəqəsi isə onun ağlını itirdiyini zənn edirdi. Onların fikrincə, şan-şöhrət və hörmətdə İmam Qəzalinin mövqeyindən uca məqam yox idi. Bu dünya səadətindən könüllü əl çəkmək, onların nəzərində divanəlikdən başqa bir şey deyildi.

Qəzali qurtuluşu təsəvvüf yolunda, elmə əməl etməkdə, hal əhli olmaqda görərkən, əslində sağalırdı, nəfsi-əmmarədən, şan-şöhrət, təkəbbür, mövqe və mənsəb hərisliyi kimi çoxlarının mübtəla olduğu mərəzlərdən xilas olurdu. O, öz nəfsi ilə, mühitin təsiri ilə, bəşəri ehtiraslarla böyük savaşa durmuşdu: az yeyir, az yatır, az danışırdı. Bu - «ölümdən öncə öl» - sufi sirrinin təntənəsi, Qəzalinin yeni həyatının başlanğıcı idi. O, yazır: «Bu qur-

tuluş bir dəlil və ya istidlal tərtibi ilə deyil, yalnız Allahın qəlbimə doldurduğu nur ilə olmuşdur» (19, 18). Bu ifadə Qəzalinin fəlsəfəni, məntiqi dərindən bildiyini, lakin «nurlanma»ya inamını, ilahi biliyin təzahürü olan irrasional idraka açıq rəğbətini göstərir. Digər tərəfdən isə onun sufiliyində Allahdan başqa bir dostu, Qurani-Kərimdən qeyri bir «mürşidi-əmin»inin olmadığına dəlalət edir.

Qəzali 11 il əyninə dərviş libası (suf) geymiş, əlinə ucu dəmir əsa almış, zahidanə həyat sürmüşdür. İki il Şamda (Suriyanın Dəməşq şəhərində) Əməvi məscidində gündüzlər zikir (Quran oxumaq), fikir (təfəkkür), şükür (ibadət) ilə məşğul olar, gecələr isə minarədən enər, təkəbbürlü nəfsini qırmaq üçün məscidin köməkçi məişət otaqlarını yuyub təmizlərdi. Onun qaldığı minarə sonralar «Əl-Qəzaliyyə» adını almışdır (21, c. 1, XXIV).

Ziya Bünyadov «Dinlər, təriqətlər, məzhəblər» kitabında «Cüneydiyyə»nin bir qolu olub sonradan Qəzalinin düşüncələrini mənimsəyənlər tərəfindən «Qəzaliyyə» adlandırılan təriqətin mövcudluğunu bildirir (2, 215).

Qəzali onu dərindən narahat edən suallara cavab tapmaq, bəlkə özünün də do ru yolda olmadığını müəyyənləşdirmək üçün həqiqət axtarışlarına qərar vermişdi: «Ölçü və hüdudsuz hikmət qapısı qəlbdə mücahidə, müraqəbə – zahiri və batini əməlləri ifa, təmiz düşüncə və hüzuri-qəlb ilə – tənha Allahı zikr etmək, maddiyyat ilə əlaqəni kəsib bütün varlığınla Allaha bağlanmaqla açılır» (21, c. 1, 82). O, məhz bu əqidəni həyatda sınamaq qərarına gəlir və bütün şübhələrinə son qoymaq üçün guşənişin həyat sürür. Qəzali həqiqət axtarışlarına kəlamın, fəlsəfənin, təriqət və məzhəblərin, təsəvvüfün tədqiqi ilə davam edir.

Xanəgaha çəkilərək yaradıcılıqla məşğul olan Qəzali öyrəndiklərini, nəzəri biliyini səfərlərdəki həyat təcrübəsi sınağından keçirərək təhlil edir, gəldiyi ibrətamiz nəticələr dolğun əsərlərə çevrilirdi. Keçirdiyi sufi həyatı, onun həm də fəlsəfi yaradıcılığının ən məhsuldar illəri hesab oluna bilər. O, nəfsi ilə mübarizədə, elmə əməldə elə bir mərtəbəyə çatmışdı ki, «zamanın qütbü və iman mərkəzinə aparan yol» adlandırılırdı (21, c. 1, XXX). Bunu onun yazdığı əsərlər, tərtib etdiyi mükəmməl antropo-etik fəlsəfi sistemdən də aydın görmək olur.

Qəzalinin bir çox əsərləri, o cümlədən 4 cildlik, təxminən 4300 səhifəlik - «İhya ulüm əd-din» («Din elmlərinin ihyası») traktatı, nisbətən kiçik həcmli digər əsərləri - 1095-ci ildə yazdığı «Məqasid əl-fəlasifə» («Filosofların məqsədləri»), «Təhafüt əl-fəlasifə» («Filosofların təkzibi»), 1099-cu ildə yazdığı «Meyar əl-elm» («Elmin meyarı»), «Məhəkk ən-nəzər» («Baxışın məhək daşı»), 1103-cü ildə yazdığı «Əl-qıstas əl-müstəqim» («Düzgün tərəzi»), 1109-cu ildə yazdığı «Əl-müstəsfa fi elm əl-üsul» («Üsul elminə dair saflaşdırma»), «Qayə ən-nəhayə» («Məqsəd və son»), «Xülasət ət-təsnif fiit-təsəvvüf («Təsəvvüf haqqında əsərin xilasəsi»), «Həqiqət ər-ruh» («Ruhun həqiqəti»), «Təlbis iblis» («İblisin yanıltması»), «Mizan əl-əməl» («Əməllər tərəzisi»), «Əl-hikmə fi məxluqatillah» («Allahın yaratdıqlarındakı hikməti»), «Əl-qavaid əl-əşəra» («On qayda»), «Məqamat əl-üləma beynə yədey əl-xüləfa» («Xəlifə qarşısında alimlərin məqamları»), «Əl-kəşf və ət təbiyn fi qürur əl-xəlq əcməin» («Bütün xalqın qüruruna dair kəşf və açıqlama»), «Kitəb əz-zühd əl-fatih» («Açıq zahidlik haqqında kitab»), «Mükaşifət əl-qülub əl-mükarribə ilə ilm əl-qüyub» («Qeyb elminə yaxın olan qəlblərin kəşf etdikləri»),

«Məaric əl-qüds fi mədaric mərifət ən-nəfs» («Nəfsin mərifətinin dərəcələrinə dair müqəddəslik pillələri»), «Risalə fi həqaiq əl-ülum li əhl əl-fühum» («Fəhm əhlinə aid elmlərin həqiqəti haqqında risalə»), «Mişkat əl-ənvar fi lətaif əl-əxbar» («Xəbərlərin incəliklərinə dair işıqlar taxcası»), «Əl-munqiz min əd-dəlal» («Yanılmaqdan xilas edən») əsərləri bu illərin məhsuludur. Maraqlıdır ki, XIX əsr Azərbaycan fəlsəfəsinin görkəmli nümayəndəsi A. Bakıxanov da «Mişkatül-ənvar» adlı poema yazmış və bu əsərində nəfslə mübarizənin fəlsəfi-etik aspektlərini açıqlamışdır (4, 47; 1, 133-177).

## Şeirə münasibət

Əbu Hamid Qəzali şair olmasa da, şeir, sənət sərrafı idi. Onun əsərlərində ara-sıra şeir parçalarına rast gəlinir. M.A.Ayni «Hüccətülislam İmam Qəzali» əsərində Qəzalinin dünyaya vida edərkən söylədiyi qəsidəni dərc etmişdir. Abdulkadir Akçiçek «Əl-mürşidül-emin ila mev'izetül-müminin» («Möminlərə moizə üçün etibarlı vəsait») əsərinin tərcüməsinə yazdığı ön sözdə Qəzalinin: «Ya İmam, sənin üçün Bağdadda dərs demək, elmi mükalimələr aparmaq bu halından (sufilikdən) daha xeyirli deyildimi? – sorğusuna şeirlə cavab verdiyini» (20, 13-14) qeyd edir. Bundan başqa, 1869-ci ildə Parisdə «Lemerre» nəşriyyatında çap olunmuş 95 səhifəlik «Les quatrains d'Al-Ghazali» əsərində də Qəzalinin şeirləri haqqında məlumat verilmişdir (21, c. 1, XCVI).

İran tədqiqatçısı H. Zerrinkub yazır ki, Qəzali fikir və düşüncələrini şeirlə vəsfə gətirəsi olsa idi, Nasir Xosrov kimi zahidanə düşüncələrlə yoğrulmuş, dövrünün qayğıları ilə yüklənən, şikayət dolu bir şair vücuda gətirərdi. Əgər sufi məhəbbəti və

rahatlığını «şeir qəlibinə» salsaydı, Əttarın mövqeyinə bənzər səviyyəsi olardı. O, qeyd edir ki, «Bu Nişapurlu şair (Əttar), nəinki «Məntiq ət-teyr» və «Şeyx Sənan»ı yazarkən, ümumiyyətlə əsərlərinin bir çoxunda Qəzalinin düşüncələrindən ilham almışdır (22, 190). Şübhəsiz ki, H. Zerrinkubun mülahizələrində müəyyən qədər həqiqət vardır, lakin «şikayət dolu şair» ifadəsi müəllifin Qəzaliyə verdiyi qiymətin obyektiv olmadığını deməyə əsas verir. Çünki Qəzalinin həyat tərzi və əsərləri onun olduqca mübariz insan olduğunu təsdiq edir.

«Qəzalinin sahib olduğu ruh və şairlik istedadı onun yazılarına orjinal fəzilət, axıcılıq verir, nəsrin tərz və üslubuna özəllik qatır. Qəzali şairliyi «dilin afəti», vaizliyi isə «bəlağət girdabı» hesab etdiyindən, özünə layiq görmürdü. Lakin bu sahələrdə xüsusi istedadı ona fəlsəfi problemlərin ifadə və izahında, ümumiyyətlə şifahi və yazılı fəaliyyətində xüsusi rəğbət qazandırır, oxucu ilə ünsiyyətini asanlaşdırırdı. Onun dili bər-bəzəksiz, sadə, lakonik və kəsərli, izahı – ardıcıl, əsaslı, təfsilatlı olmasına baxmayaraq, yorucu deyil. Onun əsərlərindən təsirli, qəlbi dərindən sarsıdan, yanğılı, ürəkdən yüksələn səmimi bir səs gəlir» (22, 192). Bu sitatda H. Zerrinkub özü də yuxarıdakı fikrini təkzib edir. Qəzali «dilin afəti» hesab etdiyi şairliyə sərf olunacaq ilhamını Allahın dərkinə imkan verən vəcdə yönəltmiş, Allahla ünsiyyəti isə «bəlağət girdabı» hesab etdiyi vaizlikdən üstün tutmuşdur.

### Əks-səda

Qəzalinin əsərləri dövrünün elmi-ictimai mühitində geniş əks-səda doğurmuş, tezliklə bütün Şərqə yayılmışdır. Həm sağlığında, həm də vəfatından sonra onun əsərlərinə yüzlərlə şərh yazılmışdır. Qəzalinin irsinin tədqiqatçıları arasında ən məşhu-

ru Əndəlüs (Kordova) filosofu Averroes - İbn Rüşddür. Onun «Təkzibi təkzib» əsəri Qəzalinin fəlsəfəsinin tənqidinə həsr olunsa da, Qəzali irsinə olan marağı daha da artırmış, əsərlərinin Avropa elmi mühitində geniş tanınmasına yeni təkan vermişdir.

Azərbaycan filosofu Ziyəddin Göyüşov «Fəzilət və qəbahət» əsərində fərdiyyətçi əxlaq nəzəriyyəçilərinin fikirlərini şərh edərkən insanlara «yaşamaq sənətini öyrədən» İntibah dövrünün böyük humanisti Petrarkadan iqtibas gətirir (5, 40). Maraqlıdır ki, Qəzalinin də əsərlər yazmaqda məqsədi insanlara İslam yaşam tərzinin elmi-əməli mahiyyətini, fəlsəfi-etik məzmununu açmaq idi. Məlumdur ki, «Petrarka Orta əsr ənənələri, Avqustinin təlimi ilə yaxından maraqlanırdı. O, dünyanın «əbədiliyi» prinsipini  qəbul etmir, averroizmin əleyhinə çıxırdı» (13, 223). Deməli, o, Əbu Hamid Qəzalinin Allahdan başqa hər şeyin müvəqqəti olması haqqında fəlsəfi mövqeyini müdafiə etmişdir. Çünki İbn Rüşdün adı çəkilən yerdə ola bilməz ki, onun Qəzaliyə münasibəti yada düşməsin. Nəzərə almaq lazımdır ki, XII əsrin görkəmli Şərq mütəfəkkiri Əbu Hamid Qəzalinin «İhyau ülumiddin», «Məqasidül-fəlasifə», «Təhafütül-fəlasifə», «Əl-munqiz min əd-dəlal» əsərləri, hələ XII-XIII əsrlərdən Avropa elmi və dini mühitinə məlum idi. Elmi mənbələrin də təsdiq etdiyi kimi, Qəzalinin və onu «Təkzibi təkzib» adlı əsərlə tənqid edən, Əndəlüs filosofu İbn Rüşdün əsərlərini orta əsrlər Qərbində fəlsəfəni anlatmaq üçün tədris edirdilər (21, LX-LXI). Alman filosofu Hegel qeyd edir ki, «Qəzali məntiqə və metafizikaya aid dərsliklər yazmışdır. O, kəskin zəkalı skeptik olmaqla yanaşı, böyük Şərq təfəkkürünə malik idi» (23, 97.) O, dünyəvi biliyə

münasibətində «materialist», axirətə inamında əsl müsəlman təsiri bağışlayırdı.

Xristian missioneri Samuel Svemer, şərqşünaslar Asin Palasios, de Bur, M.Varms, Karra de Vo, Frik, Oberman, Herder Qəzali irsinə rəğbətlə yanaşmış, onun universal biliyi və erudisiyasının xristianlıq nöqteyi-nəzərindən də əhəmiyyətini qeyd etmişlər (23, 10). İtalyan ilahiyyatçısı Akvinalı Tomas (1225-1274) Qəzalinin latın dilinə tərcümə edilmiş və «Philosophia Alqazalis» («Qəzalinin fəlsəfəsi») adlandırılan əsərindən bəhrələnmişdir (23, 75). Fransız tarixçisi Anri Masse «İslam» tarixi oçerkində Qəzalinin Avropa fəlsəfəsinə, ayrıca Tomas Akvinalının dünyagörüşünə təsirini xüsusi qeyd edir (8, 188-189).

Görkəmli ingilis şərqşünası U.M.Uott «Orta əsr Avropasına islamın təsiri» kitabında yazırdı: Ərəbdilli alimlərin tədqiqatları, əsərləri tam halda göz önünə gəldikdə aydın olur ki, onlar olmasaydı, Avropa elmi və fəlsəfəsi belə sürətlə inkişaf edə bilməzdi. Ərəbdilli alimlər yunan fikrinin sadəcə ötürücüləri deyil, həm də əsil daşıyıcıları idilər. Onlar əxz etdikləri elmləri nəinki canlı saxlamışlar, habelə onların diapazonunu genişləndirmişlər (29, 80). Qeyd etmək lazımdır ki, sosial sferada müsəlmanlığa xas riayət etdikləri halallıq prinsipinə elmdə də sadiq qalan müsəlman filosoflar, bəyəndikləri və istifadə etdikləri iqtibasların müəlliflərini göstərirdilər. Yeni dövr Qərb fəlsəfəsinin əksər nümayəndələri isə Müsəlman fəlsəfi fikrini mənimsəyərkən çox nadir hallarda istinad göstərmiş və arzu olunmaz ənənəyə vəsilə olmuşlar.

Akvinalı Tomasın, sonralar başqa Qərb filosoflarının görüşlərində Qəzali təfəkkürünün açdığı cığırların genişlənməsini görürük. Təəssüf doğuran

haldır ki, bəşərin fəlsəfi dəyərlərindən faydalanan əksər Qərb filosofları, hətta bəzi müsəlman alimləri çox zaman öz fəlsəfi düşüncə qaynaqlarını məharətlə gizlədir, ya da mənfəətlərinə uyğun aşkarlayırlar. Eyni mühakiməni dialektik materializmin nümayəndəsi V.İ.Leninə də ünvanlamaq olar (məsələn, «V.İ. Leninin ideyalarında Qurani-Kərimdən istifadə» ayrıca bir tədqiqat mövzusu ola bilər).

## Bir faktın tarixçəsi

Aleksey Xizmatulin Qəzalinin «İlahi bilgilər» («İlm əl-ləduni») əsərinin ön sözündə yazır ki, Asin Palasios İbn Ərəbinin «Ruh və qəlb haqqında biliklər» («Ər-risalə fi-n-nəfs və r-ruh») kitabının Qəzalinin «İlahi elm haqqında bilgilər» («Ər-risalə fi-l-ilm əl-ləduni») əsərindəki mətnlərlə sözbəsöz eyni olduğunu müəyyən etmişdir. O, tanınmış İran alimi Nəsrullah Pürcavada istinadən yazır: «əgər İbn Ərəbinin risaləsinin mövzusu əl-Qəzalinin risaləsinin mövzusuna uyğun gəlirsə, deməli, İbn Ərəbi başqa hallarda etdiyi kimi burada da mövzunun kimdən götürüldüyünü və mənbəyini göstərməmişdir» (3, 158). Bildirilir ki, daha sonra aparılan tədqiqatlar, manuskreptologiya və mətnşünaslıq sahəsindəki imkanlar əsərin müəllifinin Qəzali olmasını və onun ölümündən 4 il sonra (1062-ci ildə) tərtib edildiyini sübut etmişdir.

Buna baxmayaraq, artıq tədqiqatın əvvəlində qeyd edildiyi kimi, bütün dünyada, o cümlədən Azərbaycanda müsəlman fəlsəfəsinə, habelə Qəzalinin fəlsəfə və ictimai fikir tarixindəki xidmətlərinə diqqətlə və ehtiramla yanaşan görkəmli alimlər olmuşdur. Azərbaycan mütəfəkkirlərindən Siracəd-

din Urməvi, İmaməddin Ərdəbili, İbrahim Zəncani Qəzalinin müsəlman qanunçuluğuna dair «Vəciz» («Müxtəsər») adlı kitabını hələ orta əsrlərdə şərh və xülasə etmişlər (12, 89).

**«1000-dən bir əskik» yaxud 400 kitab?**

Qəzali zamanında cəmiyyəti dini və siyasi böhrandan xilas edə bilən böyük şəxsiyyətdir. Tədqiqatlarda İmam Qəzalinin «1000-dən 1 əskik» (21, c. 1, IV) irili-xırdalı əsər yazması, lakin onlardan az qisminin dövrümüzə gəlib çatması haqqında məlumat verilir. Onun bir sıra əsərləri dövlət idarəçiliyində, dini məsələlərin çözülməsində vali və vəzirlərin köməyinə çatırdı. Bu və ya digər səbəbdən həmin şəxslər öldükdən sonra əleyhidarları onların kitabxanalarını da məhv edirdilər.

Məhz bu səbəbdən Qəzalinin 40 cildlik «Quran təfsiri», Məğrib və Əndəlüs kitabxanalarında saxlanan digər əlyazmalarının çoxu dövrümüzə gəlib çatmamışdır. P.Bouyqes «Essaie de Chronologies des oeuvres de al-Ghazal» əsərində Qəzalinin hazırda 404 əsərinin, Q. Kərimov «Əl-Qəzali və sufizm» monoqrafiyasında 400 adda kitabının elmə məlum olduğunu bildirirlər. Nəzərə alsaq ki, hazırda İslam ölkələrində mənbələrin qorunması, tədqiqi və öyrənilməsi qeyri-mütəşəkkil və sistemsiz aparılır, qədim irsimiz, çoxəsrlik fəlsəfə tarixi və onun dəyərli yaradıcılığı layiqincə araşdırılmır, həqiqətən Muhamməd Qəzalinin də neçə əsəri olduğunu, bunların hansı kitabxanalarda, hansı miqdarda qorunduğunu dəqiq müəyyənləşdirmək çətindir.

Alman şərqşünası Brokkelman Qəzalinin 75 əsərinin siyahısını vermişdir. Bunların əsasən, Berlin, Drezden Vyana, Leyden (Hollandiya) British muzeyləri, Leypsiq, Upsala, Bern (İsveçrə), Paris,

Mançestr (İngiltərə), Zeytunə (Tunis), İstanbulun Köprülü 697/700, Fatih 2543/52, Qahirə, Şam-Əm, Məşhəd, Pişəvər (Pakistan), Aliqarh, Pampur Hindistan) Madrid, İsgəndəriyyə, Tehran, Beyrut, Nyu-York, Narbonn kitabxanalarında saxlanıldığı qeyd olunur (21, c. 1, LII-LXII).

Muhamməd Qəzali yalnız İslam bölgəsində deyil, Avropa elmi mühitində tanınmış qüdrətli şəxsiyyətdir. Qəzalinin zəngin irsi son illərədək əsasən iki istiqamətdə araş-dırılmışdır. Tədqiqatçıların bir qismi Əndəlüs filosofu ibn Rüşdün (1126-1198) «Təkzibi təkzib» əsərinin təsiri altında onu, materializmin, elm və tərəqqinin, ümumiyyətlə fəlsəfənin qatı düşməni kimi tənqid etmiş, digərləri isə ictimai mühitə güclü təsiri ilə nüfuz qazanmış böyük ilahiyyat alimi kimi təqdir etmişlər. (26, 71). O, bir sufi, bir mütəkəllim, məntiqçi və ya böyük filosof kimi tədqiq oluna bilər. Lakin onun şəxsiyyəti bunlardan sadəcə biri deyil, hamısı birdən bütöv bir tam olaraq qarşımıza çıxır. Qəzalinin dinamik düşüncə dünyası kəlamdan şəriət elminə, fəlsəfə və məntiqdən təsəvvüfə qədər uzanan çox geniş bir əhatə dairəsinə malikdir və cəmiyyətin bütün təbəqələrinə ünvanlanmışdır.

Fransız şərqşünası Luis Qardet yazır ki, Qəzalinin əsərləri bu gün də İslam dünyasında şüurlu və dinin əslinə uyğun bir dindarlığa işıq tutmaqda davam edir. A.J.Vensinsk, de Miquel Asin Palasios, Marqaret Smit, Montqomeri Uott, rahib Bauyqes tədqiqatlarında Qəzalinin yalnız İslam təfəkkürünə deyil, dünya mədəniyyətinə dərindən təsir edən nüfuzlu sima olduğunu dönə-dönə qeyd edirlər (23, 72; 26, 96).

Qəzalinin dövrümüzə gəlib çatan ən böyük, şah əsəri 4 clddən - 40 kitabdan ibarət «Din elmlərinin

əhyası» (İhyau-ulumiddin»*) traktatıdır. 1306-cı il Meyməniyyə (Misir) ərəbcə nəşrindən türk dilinə Ahmed Serdaroğlunun tərcümə etdiyi bu iri həcmli əsərə ön söz Übeydullah Küçük, təqdimat Ahmed Davudoğlu tərəfindən yazılmışdır. Əsəri nəşr edən İstanbul Bedir yayınevi tərcümənin əslinə uyğun olduğunu qeyd edir.

Bu əsərdə Qəzalinin dünyagörüşünün bütün aspektləri təfərrüatlı və geniş ifadə olunmuşdur. V.V. Naumkin Qəzalinin fəlsəfi-etik sistemini antropoloji sistem adlandırmaqda haqlıdır. Çünki, «Din elmlərinin ihyası» əsəri şəklində müasir dövrə gəlib çatan bu fəlsəfi-etik sistemdə insan problemi üç baxış bucağından tədqiq olunmuş, insanın şəxsiyyətə çevrilməsində ibadətin (1-ci cild: «əl-İbadət»), adət-ənənənin, mədəniyyətin (2-ci cild: «əl-Adət») və xilqətin (3-cü cild: «əl-Məxluqat») təsirləri aydınlaşdırılmışdır. Qəzali əsərinin «Qurtuluş» adlanan sonuncu cildində (4-cü cild: «əl-Münciyət») nəfsin tərbiyə və islah olunmasından bəhs etmiş, rasional təfəkkür və irrasional idrak yollarını müəyyənləşdirmişdir. O, problemlərin həllini insanın dünyada özünü və vəzifəsini dərk etməsi məsuliyyəti ilə əlaqələndirirdi.

Qəzali əsərin aktuallığını səciyyələndirərək yazır: «Cəmiyyət xəstələnmişdir (dəyərlər dəyişmişdir – İ.Z.). Həqiqi alimlər yox, yalnız təqlidçilər vardır ki, onlar da şeytana uymuşlar. Ona görə də indi məruf (yaxşılıq) münkər (pislik), münkər məruf sayılır. Cəmiyyətin başlıca məqsədi
tor qurub, haram ovlamaqdan ibarətdir, Allahın

* Tədqiqat işində Əbu Hamid Qəzalinin Anadolu türkcəsinə tərcümə edilmiş və «İhyau-Ülumiddin» adlanan 4 cildlik kitabına istinad edilir.

Qurani-kərimdə buyurduğu, Muhammməd (s.s.) və əshabələrinin tutduğu yol unudulmuşdur» (21, 3-4).

Qəzali bu əsərində İslam dini fəlsəfəsini şərh etmiş, dini həyatın, müsəlmanlığın bütün ədəb-ərkanını, sosial, hüquqi, psixoloji mahiyyətini ictimaiyyətə təqdim edərək «İslam yaşam tərzi» - müsəlmanlığın geniş təhlilini vermişdir.

Tədqiqatçılar «İhya…»nı İslam mədəniyyəti və maarifinin şah əsəri, elm-irfan-hikmət abidəsi adlandırmışlar. Bu əsər elmi əxlaq ilə, hikməti moizə ilə, nəzəriyyəni praktika ilə, sözü hal ilə birləşdirmişdir. «İhya…» təkcə ağla xitab etmir, həm də qəlbə xitab edir. «İhya…» da ən qəliz fəlsəfi problemlər hər kəsin anlaya biləcəyi bir aydınlıqla qələmə alınmışdır. «İhya…» - səmimiyyəti və ixlası ilə qəlbə, ruha nüfuz edir (21, Önsöz).

Ərəb dilindəki «ihya» sözü azərbaycan dilinə tərcümədə yaşatma, həyata keçirmə, oyandırma, diriltmə və s. Mənalarda işlənə bilər. Lakin bunların heç biri «ihya» sözünü əks etdirmir. Əsərin adının «Dini elmlərin dirçəldilməsi» tərcümə variantı Qəzalinin «İhyau ulumiddin» fikrini tam ifadə etmir. Çünki müəllif bu əsərində din elmlərini həyata keçirməkdən, xüsusilə Qurana uyğun yaşamaqdan - bəndəlikdən bəhs edir. İslam həyat tərzini açıqlayan Qəzali deyir ki, «Dini qorumaq, ona əməl etməkdir», deməli, dini elmə uyğun ömür sürməkdir.

Əsərin «İbadət» adlanan I cildinin onuncu kitabı «Kitabu tərtibil-əvrad və təfsili əhyail-ləyl» («Duaların tərtibi və gecələr əhya») adlanır (21, 961-1040). Burada «ihya» ərəb kəlməsinin «dirçəltmə» Azərbaycan sözü ilə qarşılığı yerinə düşmür və əsər müəllifinin fikrini ifadə etmir. Əsəri Anadolu türkcəsinə çevirən mütəxəssislər də bu və digər

səbəblərdən, əsərdəki «əhya» kəlməsini olduğu kimi saxlamış və tərcümə etməmişlər (21, 963).

«İhyau ulumiddin» əsərinin farsca müxtəsər tərcüməsi «Səadət iksiri», rusca tərcüməsi «Воскрещение наук о вере» adlanır. Ərəbcə-türkcə sözlükdə «əhya» sözünün tərcüməsi həyat, can vermək, canlandırmaq, dünyaya gətirmək, meydana gətirmək, qaynağını, mənbəyini təşkil etmək, etmək, yenidən can vermək («воскрещение»), həyata qovuşdurmaq, nizam, tərtib, səhnələşdirmək, qeyd etmək (həyata keçirmək)dir. Ərəbcə «əhya» sözünün kökü isə yaşamaq, yaşam, görmək, təcrübə etmək mənalarını daşıyır (15, 209). Qurani-Kərimin «Onu təmiz bir həyat ilə əhya edər və yaşadarıq» (8, 16:97) ayətinin ifadə etdiyi mənalardan biri də budur.

Yuxarıda qeyd olunanları nəzərə aldıqda məlum olur ki, əvvəlki iki tərcümədə əsərin adından daha çox daxili məzmunu və məqsədinə fikir verilmişdir. Əsərin adının Azərbaycan dilinə tərcüməsi isə müəllif haqqında tədqiqatçıların mövqeyini ortaya qoyur: Qəzali irsinin bir çox şərhçiləri onun ictimai fikir tarixindəki xidmətlərini İslamın müdafiəsi naminə dini elmləri yenidən dirçəltməsi, universallığını və vacibliyini sübut etməsi, nüfuzunu yüksəltməsi kimi qiymətləndirirlər (12, 93-97). «əhya» kəlməsi yerinə yetirmək, əməl mənalarını ifadə etdiyindən «İhya ülum əd-din» - «Dinə əməl» kimi də tərcümə oluna bilər.

Qəzali əsəri yazmaqda məqsədini belə ifadə edir: «Dilimdən sükut düyününü çözüb, nitq gərdənliyini boynuma keçirərək məni danışmağa sövq edən səbəb sənin cəhaləti bəyənərək yanlışlıqda inadın, açıq gerçəyi görməməyə israrın.., üstəlik xalqın ənənəvi mərasimlərindən ayrılıb qəlbini is-

lah, nəfsini tərbiyə edərək, elmə (Qurana – İ.Z.) əməl etmək istəyənləri təqsirləndirməyin olmuşdur» (21, 1). Deməli, Qəzalinin məqsədi sadəcə elmləri dirçəltmək deyil, həm də Elmə (Quranı - İ.Z.) əməli, onun doğru-düzgün icrasının fəlsəfi-etik, sosial-psixoloji məqamlarını cəmiyyətin diqqətinə çatdırmaq, əsl müsəlman həyat tərzinə nail olmaq idi. Bu isə peyğəmbərlik missiyası qədər məsuliyyətli, hətta daha ağır və cəsarət tələb edən məsələdir. Çünki peyğəmbərlərin öz əməllərində və söylədiklərində xüsusi istinad nöqtəsi – Allahın elçisi hesab edilən mələk - Cəbrayıl var. Qəzali isə adi insan olduğu üçün, bu köməkdən məhrumdur.
Buna görə də, Qəzalini ilk növbədə ilahiyyatçıların qəzəb və qısqanclığı (26, 21) sıxışdırır, digər tərəfdən Mənsur Həllac, Eynəlqüzat Miyanəci aqibəti gözləyirdi. Bununla belə şöhrətpərəstlikdən uzaq, saf niyyəti, Allaha olan imanı və ən əsası, irrasional idrak potensialından da rasional istifadə etmək qabiliyyəti Qəzaliyə cəsarət vermişdir. O, bu «yolçuluğun uzun və təhlükəli olduğunu bilir, eyni zamanda nəticənin böyüklüyünü və əhəmiyyətini də dərk edirdi» (21, c. 1, 4).

## Əbədiyyət

Əbu Hamid Qəzali hicri 499-cu (1106) ildə yenidən Nizamiyyə mədrəsəsinə müdir təyin olunmuşdur. Nizamülmülk İraq və Xorasan alimlərinin ildə bir dəfə onun hüzuruna toplaşaraq bütün mühazirələrini qələmə almalarını əmr etmişdir. Türk tədqiqatçısı Übeydullah Küçük «Mükatibat» adlı kitabın həmin mühazirələr əsasında tərtib edildiyini qeyd edir (21, c. 1, LXII).

Nizamiyyə mədrəsəsinə qayıdan Qəzali artıq əvvəlki Qəzali deyildi. Yenidən tədris həyatına qa-

yıdışını o, belə izah edirdi: «Mən əvvəllər insanlara mövqe və rütbə qazandıran elmləri öyrədirdim. İndi isə bunları tərk etdirən, yəqin və müşahidəyə əsaslanan bir imanla nəfsimi və digərlərinin nəfsini islah etmək istəyirəm. Allahdan, öncə məni islah etməsini, mənə hidayət verməsini, mənə haqqı haqq, batili batil olaraq göstərməsini, sonra mənim vasitəmlə digərlərini də doğru yola qovuşdurmasını diləyirəm» (21, c. 1, 807).

Hökmdar Fəxr əl-Mülk hicri 500-cü ildə batini Həsən Səbbah tərəfindən öldürüldükdən sonra Qəzali vətəni Tusa dönmüşdür. O, evinin yanında tələbələri üçün bir mədrəsə, sufilər üçün xanəgah tikdirmiş, ömrünün sonuna qədər zahiri (müamələ), batını (mükaşəfə) elmləri öyrətməklə, kitab yazmaqla, ibadətlə məşğul olmuşdur. Artıq onun heç nəyə ehtiyacı yox idi. Ona ehtiyacı olanlar isə həmişə yanında idilər: ailəsi, qızları, sadiq tələbələri Əbu Mənsur Məhəmməd, Məhəmməd ibn Əsəd ət-Tusi, Əbül-Həsən əl-Bələnsi, Əbu Abdullah Tumərt əl-Hüseyni və başqaları.

Cismən dahilərsayağı 54 il yaşamış Muhamməd Qəzalinin (1058-1112) ölümü də başqalarına bənzəməmişdir. Qardaşı Əhməd Qəzalinin dediyinə görə, o bütün gecəni zikr, Allaha təvəkkül, ibadət və Quran oxumaqla keçirmiş, dəstəmazını təzələyib səhər namazını qılmışdır. Sonra kəfən istəmiş, kəfəni başına qoymuş, üzünə sürtmüş, yönünü qibləyə çevirib uzanmış və canını Rəbbinə təslim etmişdir (26, 71). Onun Tus ərazisində, Təbəranda dəfn olunduğu bildirilir (21, c. 1, XXXVI).

## Oxucuya müraciət

Qəzali yaradıcılığı bir dəryadır. Onu bir baxışla əhatə etmək mümkün deyildir. Görüşləri, fikir və

ideyaları bütün bəşəriyyətə ünvanlanmışdır. Onun dünyagörüşü o qədər universal və realdır ki, bəşər düşüncəsinin istənilən aspektindən yanaşdıqda «dəyərli cövhər» tapmaq və ondan faydalanmaq olar.

İşi ərsəyə gətirməkdə məqsəd bütün zamanların aktual problemlərindən hesab edilən və bu gün də həyatın müxtəlif sahələrində atılan addımların məsuliyyəti haqqında bizi düşünməyə vadar edən insan amilinin həlledici rolunu bir daha xatırlamaqdır. Allah-Təala aləmləri yaratmış və onu insanın istifadəsinə vermişdir. Təbiətin, cəmiyyətin və idrakın insan üçün faydası ona doğru münasibətdən irəli gəlir. Bu münasibət bəşəriyyətə müqəddəs kitablar vasitəsilə nəql olunur. İnsan isə azad məxluq olduğundan bəndəlik məsuliyyətini bəzən unudur, ya da məsələyə öz əqli, nəfsi idealları mövqeyindən yanaşır. Problemlər yarandıqda insan yenidən hikmətə üz tutur.

2008-ci ildə Qəzalinin anadan olmasının 950 ili tamam olmuşdur. Haqqında Şərq və Qərb elm mühütündə yüzlərlə tədqiqat işi yazılması onun ensiklopedik zəkasına müraciət tələbi və ehtiyacından doğur. Bu ehtiyac İslami dəyərlərə hörmətlə yanaşan Azərbaycanda da vardır. İslamın elmi–əməli mənimsənilməsində ensiklopedik bilik sahibi Qəzalinin yaradıcılığı əhəmiyyətli rol oynayır. Mütəfəkkirin irsinin Azərbaycan dilinə tərcümə edilmiş nümunələri, tədqiqat əsərləri çox azdır. Odur ki, araşdırılmamış fəlsəfi məqamlar, açılmamış mətləblər, diqqətdən yayınan maraqlı faktlar daha geniş tədqiqatlarını gözləyir.

Kino mütəxəssisləri Qəzalinin həyat və yaradıcılığına diqqət yetirsələr cəmiyyətin milli-mənəvi dəyərlərinin zənginləşməsi, övlad tərbiyəsi, ruhi və intellektual təfəkkürün inkişafı üçün zəngin ssenari

materialı əldə etmiş olarlar. Müasir zamanda informasiya texnologiyası vasitələrinin geniş tətbiqi dövründə Qəzali irsinin öyrənilməsi bir o qədər də çətinlik törətmir. Yazılı mənbə və tədqiqat işlərindən başqa Beynəlxalq İnternet şəbəkəsinin elektron səhifələrində də Qəzalinin şəxsiyyəti, habelə əsərləri barədə müxtəlif məlumatlara rast gəlmək olur. Bütün bunlarla yanaşı tərəfimizdən əsasən 2002-ci ildə ərsəyə gətirilmiş tərcümə materialını müəyyən düzəlişlərlə oxucuların mühakiməsinə təhvil verərək Əbu Hamid Qəzalinin elmi irsinin öyrənilməsində kiçik bir cəhd etməyi vacib bildik.

## İstifadə olunmuş ədəbiyyat


1. Bakıxanov A.Q. Seçilmiş əsərləri, Bakı, «Yazıçı» nəşriyyatı, 1984, 474 s.
2. Bünyadov Ziya. Dinlər, təriqətlər, məzhəblər . Bakı, «Azərbaycan», 1997, 287 s.
3. Əbu Həmid əl-Qəzali, İlahi biliklər (seçilmiş əsərlər). Azərbaycancaya tərcümə Elçin Abbasov, Nizami Vəliyev. Bakı, «Adiloğlu», 2006, 296 s.
4. Fəlsəfə: ensiklopedik lüğət. Bakı, «Azərbaycan ensiklopediyası» nəşriyyat poliqrafiya birliyi, 1997, 520 s.
5. Fəlsəfə: ensiklopedik lüğət. Bakı, «Azərbaycan ensiklopediyası» nəşriyyat poliqrafiya birliyi, 1997, 520 s.
6. Göyüşov Ziyəddin. Fəzilət və qəbahət. Bakı, Azərnəşr,1972, 470 s.
7. Hacıyeva Arzu. Hermenevtika Şərqdə (fəlsəfə tarixi kontekstində). Bakı, «Adiloğlu», 2006, 210 s.
8. Qurani-Kərim. Tərc. edənlər: Bünyadov Z. Məmmədəliyev V. Bakı, Azərnəşr, 1992, 718 s.
9. Masse Anri, İslam. Tərcümə: C.Cabbarov, A.Ələsgərov. Bakı, «EA» nəşriyyatı, 1991, 256 s.
10. Məmmədov A.M. Qəzalinin kəlama münasibəti haqqında.// Hikmət №8. Elmi araşdırmalar toplusu, Bakı, «Nafta-press», 2006, s.42-52.
11. Paşazadə A. Ş. Qafqazda islam. Bakı, Azərnəşr, 1991, 224 s.
12. Şərq fəlsəfəsi (IX-XII əsrlər) / (kollektiv, tərtibçi Z.C. Məmmədov) / Bakı, BDU nəşriyyatı, 1999, 304 s.
13. Şükürov Ağayar. Şərq fəlsəfəsi və filosofları. Bakı, «Əbilov, Zeynalov və oğulları», 2005, 664 s.
14. Zeynalov Məmmədəli. Fəlsəfə tarixi (Qərb fəlsəfəsi) / Bakı, «Azərbaycan» nəşriyyatı, 2000, 544 s.
15. Arapca-türkce sözlük. Serdar Mutçatı. Dağarcık, İstanbul, 1995, s. 209.
16. Aydın M. Gazalinin «Kurb» nazariyyesinde Allahın sifatlarının anlamı ve önemi. Ankara, 1978, 313 s.
17. İlahiyat fakültesi dergisi № 6. Erciyes universitesi matbaası, Kayseri, 1989, 341 s.

18. İmam Gazali. Devlet başkanlarına. Tercüme Osman Şekerçi. Fatih matbaası, İstanbul, 1969, 176 s.
19. İmam Gazali. Ey oğul. Bedir yayınevi, İstanbul, tarixsiz, 88 s.
20. İmam Gazali. El munkızu min-ed dalal. Terc. Hüseyn Tural. Cağaloğlu yayınevi. İstanbul 1963. 96 s.
21. İmam Gazali. İhyau Ulumid-din. c. I. Bedir yayınevi, İstanbul, 1974, 1168 s.
22. Zerrinkub H. Medreseden kaçış. Ankara yayınları, İstanbul, 2001, 320 s.
23. Ал-Газали Абу Хамед, Воскрешение наук о вере. Перевод с арабс. Наумкина В.В. Наука, Москва, 1980, 376 с.
24. Богоутдинов А.М. Очерки по истории таджикской философии. Сталинабад, 1961, 292 с.
25. Большая Советская Энциклопедия. 9-ый том. Второе издание. Изд. «Большая Советская Энциклопедия», Москва, 1951, 624 с.
26. Керимов Г. Ал-Газали и суфизм. «Элм», Баку, 1969, 110 с.
27. Рзакулизаде С.Д. Общественно-политические и философские взгляды Хагани Ширвани. Изд. Академия Наук Аз.ССР, Баку, 1962, 112 с.
28. Хайруллаев М.М. Бахадиров Р.М. Абу Абдаллах ал-Хорезми: X в. «Наука», Москва, 1988, 144 с.
29. Уотт У.М. Влияние ислама в средневековую Европу. Москва, Наука, 1976, 128 с.

# Əbu Hamid Qəzalinin «Ey oğul» («Eyyühəl-vələd») kitabından hissələrin tərcüməsi.

## Tərcüməyə ön söz

«Ey oğul» Əbu Hamid Qəzalinin dövrümüzə gəlib çatan ən kiçik, lakin dünyada ən çox yayılmış risaləsidir. Əsər maddi-mənəvi dəyər nümunəsi kimi Birləşmiş Millətlər təşkilatı, YUNESKO tərəfindən dəfələrlə ingilis, fransız, alman, ispan və digər qərb dillərinə tərcümə edilərək dünyanın müxtəlif ölkələrində tanıdılmışdır. «Ey oğul» görkəmli ilahiyyat aliminin zəngin dünyagörüşünün qısa, lakonik xülasəsi, müsəlman imanı və ibadətinə sadiq bəndənin, müdrik və yaradıcı şəxsiyyətin gələcəyə, gəncliyə, insanlara müraciətidir. Qəzalinin əsərlərinin tədqiqat və şərhlərdən daha əhəmiyyətli olduğunu düşünərək bu böyük alimin, sufi-filosofun dəyərli fikir və tövsiyələrinin yayılmasında kiçik bir iş görməyi böyük məsuliyyəti ilə bərabər, həm də mənəvi borc hesab edirəm. Çünki dünyaca məşhur bir şəxsiyyətin olduqca qiymətli əsərlərinin təhlili zamanı adi tədqiqatçı acizliyini hiss etməmək mümkün deyildir. Onun kəlamının hikmətinin müqabilində şərh və izahlar olduqca zəif görünür.

Qəzali elmi və şəxsiyyəti ilə bir müsəlman simasıdır. Müsəlmanlığı Qurani-kərim, İslam peyğəmbəri Muhamməd (s) və ardıcıllarının həyat dərsləri, Əbu Hamid Qəzali hikməti ilə mənimsəmək mənəvi qida, etibarlı təməldir. Əsrlər boyunca milyonlarla insan onun əsərlərini oxuyaraq dünyanın sıxıntılarından, psixoloji gərginlikdən, sosial problemlərdən uzaqlaşmış, hidayət tapmış, mənəvi rahatlığa qovuşmuşlar. Odur ki, bu təmələ etinasız

qalmaq insanın və insanlığın əleyhinədir.

Əbu Hamid Qəzalinin «Ey oğul» əsərindən (Tərcümə edən: C. Bilginer. İstanbul: Bedir yayınevi, «Pembe kitaplar»: 5, 1988, 35 s.) Azərbaycan dilinə tərcümə edilmiş nümunələrdə bu gün də aktuallığını itirməyən sosial əhəmiyyətli fikir və mülahizələr vardır. Azadlıq, həqiqətən azad seçim deməkdir. Hər kəsə seçimində azadlıq, Allahın rəhmət və bərəkətlərini arzulayırıq.

## Bismilləhir Rahmənir Rahim

## Ey oğul (Əyyuhə'l - vələd) əsərinin yazılma tarixçəsi

Aləmlərin Rəbbi Allah-Təalaya həmd olsun! Ona şükür edək, çünki xeyirli aqibət Allahdan qorxanlarındır. Onun peyğəmbəri Muhamməde (s) və bütün ailə-əshabna salam və dualar olsun. Məlumunuz olsun ki, bu risalə aşağıdakı səbəbdən yazılmışdır.

Şeyx İmam Zeynəddin Hüccətülislam Əbu Hamid Muhamməd Qəzalinin uzun müddət xidmətində olmuş, onun yanında elmlərə yiyələnmiş, əxlaqi fəzilətlərini kamilləşdirmiş tələbələrindən biri öyrəndiklərini götür-qoy edərək düşünür: «Peyğəmbərimiz Muhamməd (s) duasında buyurarmış: «Allahım! Faydasız elmdən Sənə sığınıram». Bu günə qədər müxtəlif elmlər öyrəndim, gəncliyimi təhsilə, bilik toplamağa sərf etdim. İndi mənim vəzifəm bu biliklər içərisindən ən yararlı, aqibətim üçün xeyirli olan elmləri seçmək, yararsızı atmaqdır». O bu düşüncə içərisində Hüccətülislam Əbu Hamid Muhamməd Qəzaliyə məktub yazmış, öz problemlərini bildirmiş, ondan dua və nəsihətlər istəmişdir. Düşünmüşdür ki, hər nə qədər ustadının «İhya ulumiddin» və digər əsərləri onun suallarına cavab verirsə də, şeyxinin yazacağı bir-neçə səhifəni Allahın izni ilə

yaşadığı müddətdə, bütün həyatı boyu yanında gəzdirmək və yazılanlara əməl etmək daha əlverişli olardı.
Beləliklə, ustadı onu məyus etməyərək bu risaləni yazmışdır ki, doğru olanı ancaq Allah bilir.

**Boş şeylərlə məşğul olmağın zərərləri**

Əziz və sevimli övladım! Allah-Təala səni daim ibadət edən qullarından etsin və sevdiklərinin yolu ilə aparsın. Bil ki, nəsihətin ən gözəli Peyğəmbər (s) örnəyidir*, onun davranış və hərəkətləri, problemlərin həllində istifadə etdiyi üsullar haqqında rəvayətlərdir. Əgər sən onlardan bir öyüd almışsansa, mənim nəsihətimə nə ehtiyacın vardır? Əgər onlardan bir şey əldə edə bilməmişsənsə, mənə söylə görüm, bu keçib gedən illərdən bəs nə qazandın?

Övladım, Peyğəmbər (s) imizin ümmətinə verdiyi öyüdlərdən birisi bu mübarək kəlamdır: «Allah-Təalanın qulundan üz çevirməsinin əlaməti onun öz vaxtını boş keçirməsidir. Ömrünün qısa anını belə, yaradılışının qayə-

* Sünnə – İslam peyğəmbəri Muhamməd (s) haqqında, onun Allaha ibadəti, İslam dinini icra etmək üsul və qaydaları, yaşam tərzi haqqında dəqiq mənbələrə istinadən verilən informasiya toplusu.

si olan ibadət*dən başqa şeylərə sərf edən, vaxtını boş keçirən adama əlbəttə ki, uzun zaman Onun həsrətini çəkmək yaraşar. Bil ki, **qırx yaşını keçdiyi halda, yaxşılıqları pisliklərindən üstün olmayan insan cəhənnəmə hazırlaşsın**». Elə bu öyüd bilib anlayanlara yetər.

## Bildiyinə əməl etmək

Övladım, nəsihət vermək asandır, çətini öyüdün mahiyyətini anlamaq və əməl etməkdir. Çünki boş zövqlərə alüdə olan insanlara öyüd-nəsihət çox ağır gəlir. Müxtəlif yasaq və qadağanlar isə onları cəzb edir və qəlblərinə daha tez yatır. Elmə surət və forma cəhətdən yanaşıb, onun imkanlarından dünyada üstünlük və mövqe qazanmaq vasitəsi kimi istifadə edənlər elə başa düşürlər ki, sadəcə bilik kifayətdir və əmələ ehtiyac yoxdur. Bəzi filosoflar bu qəbildəndirlər. Bu aldanmışlar bilmirlər ki, söylədikləri əleyhlərinə dəlil olacaqdır. Peyğəmbər (s) bu barədə demişdir: «**Biliyindən Allah-Təalanın faydalandırmadığı alim qiyamət günü ən ağır cəzaya düçar olan insanlar sırasındadar**. Allah-Təala hər cür nöqsandan ucadır».

Övladım, ona görə də əməl baxımından

---

* Yalnız İslama xas rituallar deyil, ümumiyyətlə, müsəlmanların müqəddəs kitabı Qurani-kərimə müvafiq elmi-əməli həyat tərzi nəzərdə tutulur.

müflis olma, hal əhli olmaqdan isə geri qalma. İnan ki, təkcə bilik kifayət deyil. Əgər igid bir döyüşçünün yanında digər silahları ilə bərabər on dənə hind qılıncı da olsa, o bu silahlardan istifadə etmək üsullarını bilmədən qarşısına çıxmış aslanın pəncəsində aciz qalar. Eləcə də, bir insan elmdən yüz min məsələ öyrənməsinə baxmayaraq elminə əməl etməsə, xeyri yoxdur. O ancaq bildiyinə əməl etdiyi zaman xeyrini görər. Belə bir misal var deyirlər ki, İskənçəbin və Kəşkabın qızdırma və səfra xəstəliyinə tutulmuş xəstənin şəfası üçün çarə olmasını bilmək kifayət deyil, həm də bu dərmanlardan istifadə etməyin qaydasını bilmək lazımdır.

Qurani-kərimdə buyrulur:

«İnsana ancaq öz əməli, öz zəhməti qalar!» (Quran, 53/39).

«…Hər kim Rəbbinə qovuşmağı umursa, saleh bir əməl işləsin…» (Quran, 18/110).

«…Həqiqətən Allah yaxşı işlər görənlərin mükafatını zay etməz» (9/120).

«Namazı tərk edib, şəhvətlərinin (istəklərinin) ardına düşənlər Cəhənnəmə atılacaqlar. Tövbə edib iman gətirənlərdən başqa! Onlar heç bir zülm, haqsızlıq görmədən Cənnətə daxil olacaqlar» (Quran, 19/59-60).

Bəs bu hədisi-şərifə nə deyirsən? Peyğəmbər (s) buyurmuşdur:

«İslam dini beş əsas üzərində qurulmuşdur:

1) Allahdan başqa yaradıcı olmadığına, Muhamməddin (s) Allahın qulu və rəsulu olduğuna şəhadət etmək; 2) günün beş müəyyən vaxtında namaz qılmaq; 3) Ramazan orucunu tutmaq; 4) imkan daxilində zəkat vermək və Allah adına qurban kəsmək;
5) Həcc etmək.

## Qəzalinin səkkiz öyüdü

Övladım, sənə səkkiz öyüdüm var, axirətdə biliyindən narazı qalmaq istəmirsənsə bunları nəzərə al. Bunlardan dördünü et, dördünü etmə.

**Etməməli olduğun dörd şey**:

**I.** Mümkün olduqca münaqişədən çəkin. Heç bir məsələ barədə, heç kəslə mübahisə etmə. Çünki zərəri xeyrindən çoxdur. Mübahisə riya, həsəd, nifrət, kin, düşmənçilik və s. kimi pis xasiyyətlərin qaynağıdır. Əlbəttə, gerçəyi aşkara çıxarmaq üçün söhbət, fikir mübadiləsi, hətta mübahisə etmək olar. Bu zaman mübahisənin məqsədini bildirən iki cəhətə xüsusi diqqət yetirməlisən:

1) Gerçəyin səndə və ya qarşı tərəfdə (müsahibində) olması fərqi hiss etdirilməməlidir;

2) Mübahisənin çoxluqdan, kütlədən kənar, təklikdə olmasına çalışılmalıdır.

Dinlə, burada sənə bir faydanı daha xatırladım. Bilməlisən ki, hər hansı bir problemi çözmək üçün verilən sual xəstəliyin təbibə anladılmasına bənzəyir, sualın cavabı da həkimin müalicəsi kimi olmalıdır.

Məlumun olsun ki, cahillər qəlbləri xəstə olan insanlara, alimlər isə həkimlərə bənzəyir. Biliyi az olan təbib müalicəni yaxşı apara bilmədiyi kimi, tam bilikli olan həkim də hər xəstəni deyil, müalicəsi mümkün olanı sağaltmağa çalışmalıdır. Xəstəlik ötmüş və ya müalicəsi mümkün olmayan bir dərd isə, həkim bunu nəzərə almalı, boş yerə vaxt sərf etməməlidir.

Bundan sonra xəbərin olsun ki, **cəhalətin xəstəlikləri də dörddür**. Bunlardan birinin müalicəsi mümkündür, qalanları mümkün deyil.

Müalicəsi mümkün olmayanlar:

**1.Sual və etirazları paxıllıqdan yaranan şəxslərdir.** Nə qədər açıq və məzmunlu cavablar versən, onların paxıllığı və düşmənçiliyi bir o qədər artar. Yeganə çarə onların suallarını cavabsız qoymaqdır. Deyirlər ki, yalnız həsəddən başqa bütün düşmənçiliklərin yox olması mümkündür. Ona görə də hər zaman bələlərindən ehtiyat etmək lazımdır. Ən doğrusu bələlərinə fikir verməmək və onları öz xəstəlikləri ilə baş-başa qoymaqdır. Necə ki, Allah-Təalanın kitabında buyrulur:

«Bizim Quranımızdan üz çevirib dünya həyatından başqa bir şey istəməyənlərdən üz döndər» (Quran, 53/29). Birinə həsəd edən insan hərəkəti və sözləri ilə öz əməl bağçasını oda salır. Muhamməd (s) buyurmuşdur: «Od odunu yandırıb məhv etdiyi kimi həsəd də əməli yandırıb məhv edər».

**2.Xəstəliyi axmaqlıqdan olan şəxslərdir.** Bunların müalicəsi mümkün deyildir. İsa əleyhissəlam buyurmuşdur: «Mən Allahın izni ilə ölüləri diriltməkdə çətinlik çəkmədim, fəqət axmaq insanı müalicə etməkdə aciz qaldım». Axmaq adam odur ki, qısa zamanda əqli və nəqli elmlərdən bir az öyrənir, sonra da başlayır ömrünü elmi əmələ sərf edən şəxsiyyətləri boş sualları ilə incitməyə. O elə hesab edir ki, onun hər xırda problemi başqaları üçün də həll olunmaz bir işdir. Mövcud reallığı belə dərk etməkdə aciz olan insanın sualları axmaqlıqdan irəli gəldiyi üçün, bu sualları cavabsız qoymaq daha yaxşıdır.

**3. Eləsi də vardır ki, bilik öyrənməyə, gerçəyi araşdırmağa marağı olsa da böyük elm sahiblərinin sözlərini anlamaqda çətinlik çəkir. Belələri öz qüsurlarını bilir, lakin yenə də öz xeyirləri naminə soruşmaqdan əl çəkmirlər.** Əslində bu cür insanlar deyilən mətləbi onsuz da dərk edən deyillər, çünki həqiqəti anlamağa şüur və qabiliyyətləri

çatmır. Bir nəticəsi olmayacağı üçün beləlarinə baş qoşmağına və suallarına cavab verməyinə dəyməz. Muhamməd (s) buyurmuşdur: «Biz peyğəmbərlərə əmr olunmuşdur ki, camaatla onların qavrayış və anlamlarına uyğun danışaq».

**4. Müalicəsi mümkün olan cəhalət xəstələrinə gəlincə, bunlar gerçəyi araşdıran ağıllı və anlayışlı şəxslərdirlər ki, həsəd, hiddət, şəhvət, mal-dövlət və rütbə sevdasına qapılmadan doğru yolu arayarlar.** Onların verdikləri suallar etiraz, həsəd, inad və sınamaq məqsədi ilə olmadığından, belə cahillərin müalicəsi mümkündür. Onların suallarına cavab vermək lazım, hətta vacibdir.

**II.** Etməməli olduğun dörd şeydən ikincisi vaiz olmaq və insanlara xitab etməkdir. Bu vəzifədən mümkün qədər qaçmaq lazımdır. Çünki bu işin çox təhlükəli tərəfləri vardır. Beləki, söylədiyinə əvvəlcə özün əməl etməli, sonra başqalarına xitab etməlisən. İsa əleyhissəlama deyiləni düşün. Rəbbindən ona buyrulmuşdu: «Ey Məryəmin oğlu, əvvəl özünə de. Əgər qəbul edirsənsə, sonra digərlərinə nəsihət et, yoxsa Rəbbindən utan».

Ey oğul, əgər vaizlik (natiqlik) vəzifəsi boynuna düşmüşsə, bu yolun iki pis cəhətindən qorun: **1. Danışarkən işarə və təbirdən, nitqində qondarma, yorucu ifadə və hərəkətlərdən çəkin.** Çünki Allah-Təalanın yapma,

süni hərəkətlərə, riyakarlığa qəzəbi tutar. Bil ki, insanın qəlbinin qəflətə düşməsinin və vicdanının susmasının dəlili, həddi aşıb ifrata varmasıdır. Bu haldan yalnız müqəddəs kitab Qurandakı tövsiyələri xatırlamaqla (vəzi-təzkir) şəfa tapmaq olar.

**Xatırlatma («təzkir») - zikr**

Təzkir bəndənin Allah qarşısındakı ibadətini dərk etməsi, qüsurlarını etiraf etməsi, vəzifələrini yada salması üçün ona buyrulan əmr və qadağanların xatırladılmasıdır. İnsan boş yerə, havayı keçirdiyi günlərə görə narahat olmalı, son nəfəsdə imanını qoruyub-qorumayacağı, ölüm mələyinin canını alarkən durumunun nə olacağı, Minkir və Nəkir mələklərinin sorğularına cavab verməyə gücü yetib-yetməyəcəyi kimi çətinlikləri düşünməlidir. İnsan yalnız bu dünya ilə yaşamamalı, vaxtaşırı zikr edərək axirəti xatırlamalıdır. Bundan başqa təzkir insanın Qiyamət günü Qiyamətin dayanacaqlarındakı durumu, Siratı (Cənnət və Cəhənnəm arasındakı qıl körpüsü) salamat keçməsi və Haviyə[1]yə düşüb-düşməyəcəyi barədə təlaşı – bütün bunları ardıcıl olaraq, qəlbən həyəcan keçirərək daim düşünməsini ifadə edir. Beləliklə, Qurani-Kərimə istinadən Cəhən-

[1] Haviyə – yeddi təbəqə olan Cəhənnəmin təbəqələrindən birinin adıdır.

nəm odu qorxusu altında axirətdə başa gələcək müsibətlərin izah olunmasına **təzkir** deyilir.

Cahillərə Allaha ibadətsiz keçirdikləri günlər barədə məsuliyyət daşıdıqlarını xatırlatmaq; ömürlərini boş keçirərək həyatlarını məhv etməyə çalışdıqları üçün onlara öz nöqsanlarını başa salmaq; nəfslərinin qüsurlarını göstərmək; dünya və axirətdə sonrakı peşimançılıqlardan onları xəbərdar etmək üçün xalqın məlumatlandırılmasına **moizə** deyilir.

**2.**Vaizin moizədən məqsədi başqalarının onun haqqında: «Ah, nə gözəl danışır!» - demələri, həyəcana gəlmələri, «yaxa cırmaları», tərif və şan-şöhrət xatirinə olmamalıdır. Unutmaq olmaz ki, insanların qəflətdə olması sayəsində bəzi vəz və nəsihətlər xeyirli aqibətə deyil, keçici dünya zövqləri və maraqlarına xidmət edir. **Ey oğul, sənin qayən və əzmin insanları dünyadan axirətə, fənalıqdan doğruluğa, namərdlikdən mərdliyə, şübhədən yəqinə, qəflətdən ziyaya, təkəbbürdən mötədilliyə, cahillikdən möminliyə çağırış olmalıdır.**

**Ey oğul! Sən insanlara axirəti sevdirib onları dünyaya qul olmaqdan qurtarmalısan; onlara ibadət və pəhrizkarlıq bilgilərini öyrətməli, onları yalnız Allah-Təalanın kərəm və rəhmətinə güvəndirməlisən.** Çünki insanın

fitrətində fənalığa (şərə) meyl edərək din yolundan yayınmaq, nəfsin alətinə çevrilərək Allah-Təalanın razı olmayacağı pis xüsusiyyətlərə meyl etmək xasiyyətləri vardır. Sən onların qəlblərində Allaha məhəbbət, cəmiyyət qarşısında məsuliyyət hissi yarat. Mümkün olmasa qarşılaşacaqları acınacaqlı aqibət ilə onları qorxut. Bəlkə o zaman xasiyyətləri, mənəviyyatları dəyişər, nəticədə zahiri hərəkət və davranışları da düzələr. Bununla da əməli saleh olar, Allah qatında günahları bağışlanar, qəlblərində xeyirə təbii istək və yaxşılığa həvəs yaranar. Bəli, moizə vasitəsilə nəsihətin yolu budur. Belə olmayan halda moizə həm söyləyən və həm də dinləyən üçün bir bəladır. Hətta naqis vaizi (moizə edəni) insanları yoldan çıxarıb həlaka sürükləyən şeytana bənzətmişlər. Belələrindən uzaq olmaq lazımdır. Çünki onların azdırdığı qədər, heç şeytan insanları azdıra bilməz. Səlahiyyət və imtiyaz sahibləri mümkün olduğu qədər bu kimi şəxsləri kürsülərdən endirməli və başladıqları moizələrinə, öyüd-nəsihətlərinə əngəl olmalıdırlar. Bu əmri mərufdur*.

**III.** Ey oğul! **Hakimlər və məmurlarla oturub-durmamağa çalış, onlarla sıx münasi-**

---

* Ma’ruf – yaxşı, doğru, xeyir olan; Allahın müqəddəs kitablarda insanlara təqdir etdiyi davranış və əməllər, əmr və göstərişlər.

**bətdə olma, hətta mümkünsə heç görüşmə.** Onlarla görüşmək, oturub-durmaq çox təhlükəlidir. Əgər məcbur qalsan, onları tərifləməkdən çəkin. Çünki bəzi hallarda fasiq və zalım adamın təriflənməsinə Allahın qəzəbi tutar. Belələrinin uzunömürlü olmasına dua edən kəs isə, əlbəttə ki, yer üzündə Allah-Təalaya üsyan etmiş olur.

**IV. Edilməsi vaciblərin dördüncüsü: halal olduğunu bilsən də, məmurların bəxşiş və hədiyyələrini qəbul etməməkdir.** Çünki bir adamdan nə isə ummaq dini puç edir. Sən artıq öz əqidənin deyil, həmin şəxsin təsiri altına düşürsən. Məmurlardan bəxşiş gözləyərkən, onlara yaltaqlıq edə və rəğbət bəsləyə bilərsən. Bu zaman sən özün də zülmlərində onlara şərik olma məcburiyyətində qalırsan. Bu isə öz növbəsində insanı dindən çıxaran (qula qul edən) amillərdəndir. Çünki ən azından hədiyyələrini qəbul edib, səxavətindən faydalandığın vaxt sən onları sevə bilərsən. Kim ki, birini sevir, onun çox yaşamasını arzu edir. Ona görə də insanlarla münasibətlərində çox diqqətli olmalısan. Çünki zalımın çox yaşamasını diləmək Allah-Təalanın qullarına zülm edilməsini və aləmin viran qalmasını istəməkdir. Dünya və axirət üçün bundan daha zərərli nə ola bilər?

**Ey oğul! Səni görüm, şeytanın fitnəsindən uzaq olasan.** Bu fitnənin ən şirnikləndi-

ricisi varlılardan pulları alıb yoxsullar arasında bölüşdürmək fikrinə düşməkdir. Düşünə bilərsən ki, sənin bu pulu yoxsullara verməyində bir qəbahət yoxdur. Əsla belə deyil. Bu kimi sözlərə heç vaxt inanma, məlun şeytan bu cür ehtimallarla çoxunun ağlını almışdır. Biz bunu «İhya ulümiddin» («Din elmlərinin əhyası») kitabında anlatmışıq, orada hər şey açıq-aydın yazılmışdır.

## Dörd əməli məsləhət

**I. Ey oğul! Sənin Allah-Təalaya münasibətin - səni hirsləndirməyən, bezdirməyən, incitməyən, hərəkətindən razı qaldığın xidmətçinin sənə münasibəti kimi olmalıdır.** Yəni xidmətçinin sənə etməsinə razı olmadığın bir işi, sən də əsil sahibin olan Allaha qarşı etməməlisən.

**II. Ey oğul! Layiqli odur ki, oxuduğun elmlər dünyəvi faydası, dolanışığını təmin etməsi ilə yanaşı, qəlbini də təmizləyib əxlaqını gözəlləşdirən elmlərdən olsun.** Məsələn, ömründən ancaq bir həftə qaldığını bilsən, sən artıq fiqh, əxlaq, üsul, kəlam və başqa elmlərlə məşğul olmaz, imanın barədə düşünərsən. Çünki bilirsən ki, artıq bu elmlərin sənə faydası yoxdur. O anda qəlbinin səsinə qulaq asar, dünya ilə əlaqəni kəsər, özünü pis xasiyyətlərdən təmizləyər, Allah-Təalaya sevgi və ibadət ilə məşğul olar, ətrafdakılara

lütfkarlıq göstərər, daha çox yaxşılıq etməyə çalışarsan. Əslində insanın hər gün və ya hər gecə, hətta hər an ölməsi mümkündür. Ona görə də, seçib öyrəndiyin elmlər yalnız dünya üçün faydalı olmaqla yetməz, həm də mənəviyyatını gözəlləşdirən, səni imanlı, xoş niyyətli, xeyirxah bəndə edən elmlərdən olmalıdır.

**III.** Övladım, sənə başqa bir sözum də var, qurtuluş üçün bu öyüdümü dinlə və üzərində möhkəm dayan. Əgər həftə sonunda hökmdarın səni ziyarət edəcəyini öyrənsən, yaxşı bilirəm ki, bütün iş-gücünü buraxıb onu layiqincə qarşılamaq üçün hazırlaşacaqsan. **Ey oğul! Ölümə və Allahın hüzuruna qayıdacağın günə daim hazır olmalısan.** Hər şeyi yaxşı düşün. Çünki sən anlayansan: ağıllı adama bir söz kifayətdir.

Muhamməd əleyhissəlam buyurmuşdur: «Bilin ki, Allah-Təala sizin xarici görünüşünüzə və əməllərinizə baxmaz, ancaq qəlblərinizə və niyyətlərinizə baxar». Əgər qəlbin hallarını öyrənmək istəsən, «Din elmlərinin əhyası» və digər əsərlərimə bax. Qəlb elmi («elmül ləduniyyə» - qəlbi qidalandıran ilahi bilgilər) – fərzdir (yəni vacibdir). Digər elmlərə gəldikdə isə, bilməlisən ki, Allah Təalanın fərz buyurduqları müstəsna, qalanları mümkün olandır. Yəni sonuncuları hamının deyil, bəzi insanların bilməsi kifayətdir. Elm

və təhsildə Allah səni uğurlu etsin!

**IV. Ey oğul! Dünya malından bir illik azuqə yığsan bəsindir.** Deyilənə görə, Peyğəmbər əleyhissəlam ailəsi və zövcələri üçün bir illik tədarük görərmiş. O hər zaman: «Allahım, Muhamməmədin (s) ailəsinin ruzisini kifayət qədər et» deyə dua edərmiş. Deyilənə görə, Peyğəmbərimiz (s) bəzi zəif qəlbli (nəfsi qarşısında aciz) zövcələrinin bir illik azuqələrini hazırlayar, tamamilə Allah-Təalaya bağlananlara isə bir günlük, hətta yarım günlük azuqədən artıq hazırlamaz, Allaha təvəkküllə yaşayarmış. Məlum olduğu kimi, Allah-təala da öz bəndəsini heç vaxt naümüd, çarəsiz durumda qoymamışdır.

Övladım, bu bölmədə sənin məndən istədiyin mətləbləri yazdım. Sənə yaraşan bunlara əməl etmək və mənə dua etməyi unutmamaqdır. Soruşduğun başlıca duaya gəlincə, onu da səhih hədislər arasında axtar. Sənə məsləhət gördüyüm bu duanı isə hər zaman və xüsusilə namazlarının sonunda oxu: **«Allahım, Səndən nemətin tamamını, qorumanın davamını, rəhmətinin sonsuzunu, ruzinin halalını, yaşayışın rahatını, ömrün səadətlisini, ihsanın (nəsibin) tamını, bəhərin faydasını istəyirəm. Allahım, bizi tərəfdarlarının yoluna yönəlt, qəzəbinə gəlmişlərdən etmə!**

## Əbu Hamid Qəzalinin «Hökmdarlara nəsihət» («Nəsihətul-muluk») kitabından bəzi hissələrin tərcüməsi

### Bir təfərrüat yaxud «Hökmdarlara nəsihət»in tarixcəsi

Əbu Hamid Qəzalinin «Hökmdarlara nəsihət» («Nəsihətul-mülük») kitabı onun ictimai-siyasi görüşlərini əks etdirir (17, 52-66, 95, 96-138). Oxuculara təqdim olunmuş hissələr kitabın fars dilindəki orijinalından Anadolu türkcəsinə 1969-cu ildə Osman Şekerçi tərəfindən çevrilmiş «Devlet başkanlarına» adlanan nüsxəsindən Azərbaycan türkcəsinə tərcümə olunmuşdur (17).

Bəzi türkdilli ədəbiyyatlarda əsərin gah Sultan Səncərə, gah da Sultan Məhəmməd ibn Məlikşaha müraciətlə yazılması qeyd olunur (17, 14; 21, XXXVII-XXXVIII, VVIII). Halbuki Qəzali vəfat edəndə Sultan Səncər hakimiyyətə gəlməmişdi. Sultan Məlikşahın ölümündən sonra, onun xanımı Türkan xatunun oğlu Mahmudu hakimiyyətə gətirmək uğrunda bütün cəhdlərinə baxmayaraq, əvvəlcə Bərqyaruk ibn Məlikşah (1094-1105), sonra Mehmet Tapar (1105-1118), daha sonra Sultan Səncər (1118-1157) taxta çıxmışdır. Professor M. A. Köymən «Türk tarixi: Səlcuqlar dövrü» əsərində Türkan xatunun böyük nüfuz sahibi

Qəzaliyə müraciət etməsi və onun təsirilə Məkkə və Mədinə də daxil olmaqla, bütün xilafətdə Mahmudun adına xütbə oxutduğu barədə məlumat verir. Lakin digər tədqiqatlarda əksinə, Qəzalinin şəriətə görə, qardaşlardan yaşı az olanın sultan olmayacağı qərarını bildirdiyi və Bərqyaruku hökmdarlığa tövsiyə etdiyi vurğulanmışdır (16, 172-173). Beləliklə, tədqiqat kitabın Sultan Məlikşaha həsr olunması fikrini təsdiq edir.

«Hökmdarlara nəsihət» kitabında Qəzalinin dövlət idarəçiliyi haqqındakı görüşləri əks olunmuşdur. Onun nəzərində ən yaxşı hökmdar o şəxsdir ki, hakimiyyəti altında sabit xarakterli, təmkinli, əqidəli insanlar rahat, «buqələmun»lar, nakəslər isə təlaş içərisində yaşayırlar (17, 109). Hökmdar bilməlidir ki, ən ədalətsiz insan imanını və axirətini dünya nemətlərinə satandır. O özü də təbəələrinə qarşı ədalətli olmalı, həzz və qəzəb kimi nəfsani gücünü ağıl və imanına tabe etməyi bacarmalıdır. O, yazır ki, «Ədalət günəşi əvvəlcə hökmdarın qəlbində baş qaldırarsa, ətrafı nura boyayar» (3, 32-33). Qəzaliyə görə, ədalət əqli dolğunluqdan yaranır və konkret məqsədə əsaslanır. Hər cür xoşbəxtliyin əsası ağıl, elmin nəticəsi kəşfdir.

**Bismilləhir Rahmənir Rahim**

## Filosofların hikmətləri barədə*

Hikmət Allahın qüdrətinin nişanəsi, bəndələrinə bəxş etdiyi müstəsna özəllik, mərhəmət və qüdrətinin nümunəsi olub, yalnız istədiyi qullarında təcəssüm edən bir keyfiyyətdir.

Sokrat demişdir: «Allahın hikmət verdiyi bəndə onun qədrini bilərsə, qurtuluş tapar. Hikmətin bəhrəsi rahatlıq və ucalıqdır. Sərvət, var-dövlət hərisi olan insanların qazancı isə əziyyət və bədbəxtlikdir».

İbn Mükaffa rəvayət etmişdir ki, Hind hökmdarlarının fillərlə daşınacaq qədər çoxlu kitabları varmış. Bu kitabları məzmunca çeşidləmək lazım gələndə müdriklər onları aşağıdakı özəlliklər üzrə dörd qismə ayırmışlar:

- Hökmdarlar üçün – ədalət.
- Cəmiyyət üçün – itaət.
- Fərd üçün – nəfsə hakimlik.
- Şan-şöhrət xəstələri üçün – özündən başqasına baxmamaq.

---

* Bu başlıq altında müdriklərin təbiət, cəmiyyət və idrakın müxtəlif xarakterli münasibətlərinin təhlili, təcrübi müşahidələr əsasında alınmış mülahizələrinin şərhi (əsərin orijinal strukturunu qorumaq üçün tərcüməçi tərəfindən məzmuna uyğun bölgü aparılmamış, mətn hissələrinin yarımbaşlıqları olduğu kimi saxlanılmışdır) verilmişdir..

## Hikmət

Filosoflardan bəziləri hikmət haqqında belə deyərmişlər:

- Elə insanlar vardır ki, **elmlidirlər və bildiklərinə əməl edirlər**. Bunlar müdriklərdir, onlardan örnək almaq olar.
- Elələri də vardır ki, **elmlidirlər, lakin bildiklərini icra etməzlər**. Bu cür insanlara etibar etmək olmaz.
- Bəziləri çox bilikli olmasalar da onların müşahidə və dinləmək bacarıqları güclüdür. **Bilmədiklərini öyrənmək istəyirlər**. Onlardan biliyi əsirgəməmək, onları öyrətmək lazımdır.
- Elə insanlar vardır ki, heç nə **bilmədikləri halda öyrənmək də istəmir, hətta nəsihət belə dinləmirlər**. Bunlar nadandırlar. Belələrindən çəkinin, havayı vaxt sərf etməyinə dəyməz.

Bir nəfərdən soruşurlar: «Ən yaxın və ən uzaq olan şeylər nədir?». O cavab verir ki: «Ən yaxın ölüm anı, ən uzaq olan isə arzudur».

Ahnəf ibn Qeys demişdir: «İki şeyin çarəsi mümkün deyildir: 1) olmuş işi geri qaytarmaq; 2) geridə qalanı irəli gətirmək».

Loğman həkim oğluna demişdir: «İki şeyi: 1) dünya üçün pulunu; 2) axirət üçün dinini qorusan, sonda uduzmaz, heç kəs qarşısında borclu qalmazsan.

## Hikmət

Ənuşirəvan Bəzorq Mehrdən soruşur: - Hansı səbəbdən dostun düşmən, düşmənin dost olması mümkündür?

Həmin şəxs cavab verir ki: - Binanı dağıtmaq, dağılanı təmir etməkdən, şüşəni qırmaq, onu düzəltməkdən asandır. Unutma ki, bədəni sağlam saxlamaq dərmanı lazımınca işlətməkdən asılıdır. Xəstəlik isə dərmanı və tövbəni tərk edib şəhvətə və üzüntüyə düşməyin nəticəsidir. Nəfsin arzularına müxalif olmaq cəhənnəm odundan daha xeyirlidir. Deyilənləri anla və özün bir nəticə çıxarmağa çalış*.

Filosoflardan biri dünyanı dolaşaraq insanlara bu hikmətləri öyrədərmiş:

Elmi olmayanın dünya və axirətdə şərəfi;

Səbri olmayanın dində kəraməti;

Mötədilliyi olmayanın Allah qatında dəyəri;

Səxavəti olmayanın sərvətindən bir xeyri;

Nəsihəti olmayanın Allah qarşısında bəraəti olmaz.

Bəzorq Mehrdən soruşurlar: Hansı izzət zillətlə birlikdədir?

O cavab verir: «Dövlət başçısına xidmət,

---

* Əsərin əslində olduğu kimi tərcümədə də Əbu Hamid Qəzalinin suala üstüörtülü, dolayı cavabına tərcüməçi tərəfindən əlavə şərh verilməmiş, yanlış yozuma səbəb olmamaq üçün mətnin bu hissəsi də olduğu kimi izahsız saxlanılmış, nəticə çıxarmaq oxucunun ixtiyarına buraxılmışdır.

tamah və qayğıdan ayrı ola bilməz».

«Ölkənin inkişafı neçə olmalıdır?» sualının cavabı isə belədir: «Fəaliyyətləri artırmaqla».

## Qısa sual-cavablar

- Comərd kimdir, bilirsinizmi?

- Verdiyini xatırlamayandır.

- İnsanlar sərvət üçün özlərini niyə fəda edirlər?

- Çünki onlar sərvəti, var-dövləti dünyada ən xeyirli şey zənn edir, niyyət haqqında düşünmürlər. Yəni mal-dövlətin yaxşılığa, xeyirxahlığa sərf edilməli olduğunu və sərvətin yalnız xeyirxahlıq üçün Allahdan istənilə biləcəyini heç də hamı hər zaman dərk etmir.

- Ruhdan daha üstün bir şey varmı ki, insanlar həyatlarını heç çəkinmədən ona qurban versinlər?

- Üç şey insanlarda ruha üstün gələ bilər: din, kin, çətinlikdən xilas olma təlaşı.

- Elmin, kəramətin və şücaətin zinəti nədir?

- Elmin zinəti doğruluq, kəramətin zinəti təbəssüm və şücaətin zinəti insanın güclü olmasına baxmayaraq zəifi əhv edə bilməsi, bağışlamaq bacarığıdır.

Yunan filosoflarılarının qənaətinə görə üç şeyi insanlar fəlakət hesab edirlər: az qazancla böyük ailə dolandırmağı; pis

qonşunu; ləyaqətsiz arvadı.

**Dünyanın işləri təxmini olaraq qruplaşdırılsa, ümumilikdə əsasən 25 növə ayrılar:**

Bunların beş qismi insanın qəzavü-qədəri ilə bağlıdır: ər-arvadlıq, övlad, mal-dövlət, nüfuz, mövqe.

Dünya işlərinin beşi insanın öz fəaliyyəti, zəhməti sayəsində əldə ediləndir: bilik, xəttatlıq, ustalıq, Cəhənnəm odundan xilas olmaq və Cənnəti qazanmaq.

Dünya işlərinin beşi insanın təbiətindən asılıdır: vəfa, mənəvi saflıq, təvazökarlıq, mərdlik və doğruluq.

Dünya işlərinin beşi adətə (vərdişə) bağlıdır: yeriş ədəbi, qidalanma ədəbi, yuxu, cima tərzi, dəstamaz və qüsl alma qaydası.

Dünya işlərinin beşi insanların irsi xüsusiyyətləri ilə əlaqədardır: gözəllik, əxlaq, ülviyyət, qürur, dəyanət.

Deyilənə görə həyatda **nəfsə ağır gələn üç vacib şey** vardır ki, ağıllı şəxslərin onu unutması doğru deyildir:

1.Dünyanın faniliyini.
2. Sonunun gələcəyini.
3. Zəmanənin sınaqlarını.

## Hikmət

Həkim demişdir:

Beş faktor aşağıdakı hallarda dəyərdən düşər:

1. Günəş çıxdıqdan sonra çıraq.
2. Şoran torpaqlarda yağış.
3. Korun yanında gözəl qadın.
4. Toxun yanında dadlı yemək.
5. Zalımın qarşısında Allah kəlamı.

İsgəndərdən: «Nə üçün müəlliminə atandan artıq hörmət edirsən?» deyə soruşularkən, o cavab vermişdir: «**Atam məni fani dünyaya gətirmiş, müəllimim isə əbədiyyətə ucaltmışdır**».

Yadında saxla, istədiyin kimi **zaman səninlə ayaqlaşmırsa, sən zamanla ayaqlaşmağa çalış**. İnsan zəmanənin qulu, zəmanə isə insanın düşmənidir. İnsan aldığı hər nəfəslə dünyadan uzaqlaşdığı qədər də ölümə yaxınlaşır.

## Hikmət

Bir qrup filosof Bəzorq Mehrə deyir:

- Ruhlarımızın və cəsədlərimizin faydalanacağı hikmət qapılarını bizə tanıt ki, ona görə hərəkət edək. Bizə zərər verəcək şeylərdən bu hikmət sayəsində uzaqlaşaq. Allah söyləyəcəklərinə görə səni mükafatlandırsın.

O, belə cavab verir:

- Bilin və inanın ki, dörd şey gözün işığını artırar və görməni aydınlaşdırar. Dörd şey isə görməni zəiflədər. Dörd şey bədəni yağlı edər və kökəldər. Dörd şey qəlbi canlandırar

və dörd şey də onu məhv edər.

**Gözün aydınlığını artıran dörd vasitə**: yaşıllıq, axar su, təmiz su, sevimli simalara baxmaq.

**Gözün işığını azaldan dörd vasitə**: duzlu yemək, başa isti su tökmək, günəş şüasına baxmaq, düşmənə baxmaq.

**Bədəni gumrah edən vasitələr**: rahat paltar, qəlbi üzməmək, gözəl rayihə, düz yataqda yatmaq.

**Bədəni zəiflədən amillər**: günəşdə qurudulmuş ət yemək, ziyadə cinsi münasibət, hamamda çox qalmaq, axşam namazı vaxtı (şər qarışan vaxt) yatmaq və qaba paltar geymək.

**İnsanı sağlam edən amillər**: vaxtında qidalanmaq, bədən ölçülərini qorumaq[1], cəncəl işlərdən çəkinmək, bədbinliyə düşməmək.

**İnsanı yoran amillər**: keşməkeşli yollardan keçmək, ram edilməmiş ata minmək, əldən düşənə qədər yerimək, yaşlı qadınlarla eyş-işrət.

**Qəlbi canlandıran (fərəhli, şux edən) amillər**: həyat bilgisi, müdrik müəllim, etibarlı həmkar, imdada yetən dost.

**Qəlbi məhv edən amillər**: şiddətli soyuq, zəhərlənmə, boğucu tüstü, düşmənçilik hissi.

---

[1] Yetkin insanda bədən ölçülərinin dəyişməsi orqanizm daxilində hər hansı bir xəstəliyin yaranması nəticəsindəi ola bilər. Səhhəti sağlam saxlamaq üçün bu cəhət nəzərdən qaçırılmamalıdır.

Sokrat demişdir: - **Beş şey insanı həlak edə bilər**: dostların xəyanəti, hikmətdən kənar düşmək, öz-özünə hörmətsizlik, təkəbbür, lovğalıq.

Hippokrat demişdir: «Beş şey beş şeydən doymaz: qadın kişidən, göz baxmaqdan, qulaq xəbərdən, od odundan və alim elmdən».

## Hikmət

Filosofdan soruşmuşlar: «Dünyada ən acı və ən şirin şey nədir?».

O cavab vermişdir: «Ən acı şeylər: kobud ifadə, məcburi din və kəsadlıqdır («əlin aşağı olması»). Ən şirin şeylər isə: uşaq, xoş söz və çətin işi asanlaşdırmaqdır».

Sual: Ölüm və yuxunu müqayisə etmək olarmı?

Cavab: Yuxu yüngül ölüm, ölüm isə ağır yuxudur.

Sual: Zənginlik nədir?

Cavab: Qənaət və rizadır, yəni malik olduğuna qane, razı olmaqdır.

Sual: Eşq nədir?

Cavab: Ruhun xəstəliyi və insanın həsrətdən ölməsidir.

Aristoteldən soruşmuşlar:

- Hansı dost etimada daha layiq, hansı dost daha əzizdir?

- Ənənəvi dostluq daha etimadlı, köhnə dost daha əzizdir – deyə o cavab vermişdir.

Calinos demişdir:

- **Altı amil unutqanlıq yaradır**: kobud söz eşitmək, durğun suyu murdarlamaq, köhnəlmiş tərəvəz və solmuş göyərti yemək, ölünün üzünə baxmaq, çox yatmaq, dağıntılıra (xarabalığa) çox baxmaq.

Tibb kitablarında yazılmışdır: **unutqanlığın altı səbəbi vardır**: - bəlğəm, qəhqəhə ilə gülmək, duzlu və yağlı ət yemək, ziyadə cinsi münasibət, yuxusuzluq, rütubətin çoxluğu.

## Hikmət

Əbül-Qasim əl-Həkim demişdir: - **Dünyanın bütün fitnə-fəsadı üç cür insandan qaynaqlanır:** xəbəri verənlərdən, xəbərlərə qulaq şəkləyənlərdən və xəbərlərə baş qoşanlardan. Bu üç qrup insanlar özləri də narahatlıqdan və məzəmmətdən heç vaxt (xasiyyətlərini dəyişmədikcə) qurtara bilməzlər.

Deyirlər ki, **üç keyfiyyət digər üç keyfiyyətlə tutmaz**, yəni onların bir yerdə olması mümkün deyildir: nəfsə qul olmaqla halal yemək; qəzəblə şəfqət; boşboğazlıqla dürüstlük.

Filosof Bəzorq Mehr demişdir: - Bütün sıxıntılardan qurtarmaq istəyən hər kəs davranışını uşaqların əxlaqına bənzətməyə çalışsın.

Onların əxlaqı necədir? - deyə soruşanla-

ra o belə cavab vermişdir:

- **Uşaqlarda beş xislət vardır** ki, bunlar böyüklərdə olsaydı, bir sıxıntıları qalmazdı. Uşaqlar ruzi dərdi çəkmirlər, xəstələndikləri zaman Rəbblərinə şikayət etmirlər, birlikdə daha iştahla yeyir, dalaşdıqları zaman bir-birilərinə kin bəsləmirlər, qorxduqları zaman öz hisslərini təlaş və göz yaşları ilə ifadə edirlər.

## Hikmət

Vəhb ibn Münəbbih demişdir: - Tövratda yazılmışdır: «**Haramdan çəkinməyən alim oğru, ağlı olmayan insan isə heyvan kimidir**».

Ahnəf ibn Qeys demişdir: «Hökmdarlarda dostluq, yalançılarda vəfa, paxıl adamda rahatlıq, alçaq xislətlidə mürvət və nakəsdə alicənablıq olmaz».

Bəzorq Mehr demişdir: Salamatlıq dörd amillə bağlıdır: din, sərvət, bədən və sağlam ailə.

**Rifah və əmin-amanlıq üç keyfiyyətə bağlıdır**:

Nəfsin arzularına uymamaq.
Allahın əmrlərinə əməl etmək.
Başqasına həsəd aparmamaq.

**Sərvət üç amilə bağlıdır**:

Olanı qorumaq.
Əmanətə sədaqət.
Zəkat vermək.

**Bədənin səhhəti üç amildən asılıdır**:

Çox yeməmək.

Az danışmaq.

Az yatmaq.

**Ailəninin bütövlüyünü təmin edən üç başlıca cəhət** aşağıdakılardır:

Qənaət.

Xoş rəftar.

Allaha təvəkkül etmək.

Hatəm-ül Üsamədən soruşmuşlar: «İndiki insanlar əvvəlkilər kimi xoşbəxt ola bilmirlər, səadətə çatmaq üçün nə lazımdır?»

- O, belə cavab vermişdir:

- **Səadətə çatmaq üçün** insanların: 1) öyüd verən müəllimə, 2) münasib dosta, 3) daim şükr etməyə, 4) halal qazancla dolanmağa və 5) əlverişli zamanı «tutmağa» ehtiyacları var.

Filosoflardan soruşmuşlar: «**Xalq arasında yayılmış ən başlıca xüsusiyyətlər** hansılardır?» Onlar bildirmişlər: «Dolanışıq və ehtiyacın ödənməsi üçün çox tədbirlər görül-məsinə baxmayaraq, bunların Allah qatında dəyərinin olmaması. Bir çox insan kasıblıqdan başqa hər şeyin əsiridir. Heç kim kasıb olmağı arzulamır. İnsanların hamısı varlı olmaq istəyir. Heç kəs qəm, kədər istəmir, hamı sevincə, rifaha vurğundur. Heç kəs ölümü arzulamır. Əksinə, hamı dünyaya, həyata bağlıdır.

Əbül Qasım əl-Həkim demişdir: «**İnsanı məhvə sürükləyən iki başlıca cəhət** vardır: üsyan (asilik) və alimlərin fikirlərini nəzərə almamaq, yəni hikmətdən aralı düşmək.

**Üç qrup insanların ucbatından cəmiyyət bəlaya düçar ola bilər**:

Sapıq (yanlış yolda olan) alimlər,

Axmaq idarəçilər,

Xudpəsənd sakinlər.

Deyirlər ki, xəsisdən vəfa, tamahkardan sağlamlıq gözləmə.

Həkim[1] demişdir: «**Bu zəmanədə iki dəyər qiymətdən düşmüşdür**: din və kasıblıq».

Üç şeyə eyni tərzdə, nəzakət və hörmətlə baxmaq lazımdır:

1.Kasıba təkəbbürlə deyil, təvazökarcasına.

2.Zənginlərə həsəd gözü ilə deyil, öyüd gözü ilə.

3.Qadınlara şəhvət gözü ilə deyil, şəfqət gözü ilə.

## Hikmət

Vəhb ibn Münəbbih demişdir: «Tövratdan oxudum ki, **günah üç şeydən yaranır**: təkəbbür, tamah və həsəddən. Bunlar isə beş keyfiyyətin nəticəsində meydana gəlir: çox yatmaq, çox yemək, çox dincəlmək, çox

[1] Əbül Qasım əl-Həkim

təriflənmək və öyülmək, dünyaya bağlılıq.

**Üç şeydən xilas ola bilən insanın yeri Cənnət hesab edilir:**

Minnət qoymaqdan.

Başqasına zəhmət verməkdən.

Rüsvayçılıqdan.

İbn Kariyə Həccac ibn Yusifin yanına gələrkən o, İbn Kariyyəyə bir-neçə sual vermiş və aşağıdakı cavabları almışdır:

- Küfr nədir?

- Nemətə həddən artıq sevinmək.

- Riza nədir?

- Allaha, Onun müqəddəs Qurani-Kərimdə bildirdiyi əmrlərə tabe olmaq, taleyə boyun əyərək səbir etmək, qismətdən razı olmaq.

- Səbir nədir?

- Qəzəbi cilovlamaq, özünü ələ almaq.

- Həlimlik nədir?

- Güclü olduğu halda şəfqətli davranmaq.

- Kərəm nədir?

- Dostluğu qorumaq və vəzifənin öhdə sindən gəlmək.

- Qənaət nədir?

- Yemək və geyim cəhətdən malik olduğuna qane olmaq .

- Zənginlik nədir?

- Gözü toxluq, ruzinin azını belə çox hesab etmək, səxavətli olmaq.

- Himayə nədir?
- Özündən aşağı səviyyədə olanlara əl tutmaq.
- Şücaət nədir?
- Hücum və müdafiəyə qadir olmaq.
- Ağıl nədir?
- Düz danışmaq və insanları sevindirmək.
- Ədalət nədir?
- Şəxsi istəyi kənara qoyub, əqidə və fəaliyyətdə dürüst olmaq.
- İnsaf nədir?
- Qarşı tərəflər arasında eyni mərhəmətli münasibəti saxlamaq.
- Zillət nədir?
- Məhrumiyyət.
- Əmanət nədir?
- Lazımi şeyi qeyd-şərtsiz yerinə yetirmək. Vədə əməl etmək.
- Xəyanət nədir?
- Bacarıq və qabiliyyəti şərə sərf etmək.
- Anlamaq nədir?
- Düşünərək əşyanın həqiqətini dərk etmək.

## Hikmət

Həkim demişdir: «**Səkkiz şey sahibini rəzil edər:**
- Çağrılmayan süfrəyə qonaq olmaq.
- Ev sahibinə göstəriş vermək.
- Düşməndən yardım gözləmək.

- İki nəfərin söhbətinə müdaxilə etmək.
- Hökmdarı pisləmək.
- Rütbəyə uyğun olmayan vəzifəni tutmaq.
- Heç kəsin dinləmədiyi halda danışmaq.
- Yadlardan dostluq ummaq.

## Hikmət

Bəzorq Mehrdən soruşmuşlar: «O nədir ki, söylənərkən, doğru olmasına baxmayaraq, sahibini pis vəziyyətə salar?».

O cavab vermişdir: «Adamın özünü öyməsi. Çünki paxılın qısqanclıq etməyəcəyini və acıqlı adamların rahat qala biləcəyini düşünmək sadəlövhlük olar. Heç həsəd edən, paxıl insanın səxavətli, ümidsiz bir şəxsin zəngin olduğunu gördünmü? Və dostu olan bir dövlət başçısı da görə bilməzsən».

«Var-dövlət alimlərin qəlbinə hakim kəsilə bilərmi? – sualına isə o, belə cavab vermişdi: «**Sərvəti qəlbinə hakim olan alim - alim deyildir**».

Həkim demişdir: «**Fiziki əzab mənəvi əzabdan yaxşıdır**».

Bəzorq Mehr demişdir: «**Dünyanın ən qəmli və kədərli insanı bu üç qismdir**:

Sevgilisindən ayrı aşiq.

Övladını itirmiş valideyn.

Zəngin ikən müflis olmuş adam.

## Hikmət

Əmr ibn Məidi demişdir: «**Xoş söz qayalardan da sərt qəlbləri yumşaldır, kobud söz isə ipəkdən yumşaq qəlbləri daşa döndərir**.

Həkim demişdir:

**Ağrı, əzab bədənin xəstəliyini ifadə etdiyi kimi hüzn, kədər də ruhun xəstəliyindən xəbər veriir.** Yemək bədənin qidası olduğu kimi, sevinc də ruhun qidasıdır.

***Allahın mərhəməti, xeyir və bərəkəti üzərinizə olsun!***

## Ağıl və ağıllı insanların üstünlüyü haqqında

Uca Allah ağlı ən gözəl biçimdə yaratmışdır. Ona: «İrəli!» dedikdə o irəliləyir, «Geri!» dedikdə geri qayıdır. Müqəddəs kitabda (Qurani-Kərim nəzərdə tutulur) bu məqam belə ifadə olunur: «İzzət və cəlalıma and içirəm ki, səndən (ağıldan) daha üstün bir şey yaratmadım. Sənin vasitənlə alır və sənin vasitənlə verirəm. Sənin vasitənlə haqq-hesab çəkir, səninlə cəzalandırıram».

Bu kəlamın rolunu sübut etmək üçün Allah-təala Qurani-Kərimdə bəndələrinə nəyi edib («halal»), nəyi etməmək («haram») haqqında əmrlər vermişdir. Qurani-Kərimdə bildirildiyi kimi, bunların hər ikisi ağılla icra olunur.

«**Murdar (haram) şeyin çoxluğu xoşuna gəlsə belə, murdarla təmiz (haramla halal) bir ola bilməz. Ey ağıl sahibləri, Allahdan qorxun ki, bəlkə, nicat tapasınız**» (Quran, 5/100).

«Ağıl» kəlməsi ilə eyni kökdən olan «ukkal» sözündən alınmış «məkıl» sözü sığınacaq, daldalanacaq yer, təpədə qurulmuş möhkəm divar, qala mənasını ifadə edir. Heç nə onu yıxa, əzə və aşa bilməz.

## Hikmət

Bir İran filosofundan soruşmuşlar: «Kimi ağıllı hesab etmək olar?». O cavab vermişdir: «**Ağıllı insanı xarakterizə edən dörd xüsusiyyət vardır**: 1)onu incidənə əhəmiyyət verməz; 2) səviyyəcə özündən aşağı insanlara təvazökar davranar; 3)yaxşılıq uğrunda rəqabət aparar, başqasından geri qalmamağa çalışar; 4) Daim Allahı anar – Onun elmindən danışar, insanlarla ünsiyyətində sözünün yerini və zamanını bilər, çətinliklə rastlaşdıqda Allaha sığınar». **Nadanın da özünə məxsus xüsusiyyətləri vardır**: insanları zəhmətə salar, onlara əzab verər, öz səviyyəsindəki digər insanları incidər, özündən üstün olanların paxıllığını çəkər, savadsız danışar, qüsurlarını boynuna almaz, bir çətinlik yarananda özünə qəsd etmək fikrinə düşər, xeyir işlərdən qaçar.

## Hikmət

Səid ibn Cabir demişdir: «**İnsanın ən gözəl geyimi ağıldır**. İnsan sarsıldığı zaman ağıl onu yenidən dirçəldir, yıxıldığı zaman qaldırır, rəzalətdən fəzilətə yüksəldə bilir, kasıbı dövlətli edər. İnsanın ən ümdə vəzifəsi, aşağıdakı hekayədən də göründüyü kimi, ağlın və elmin vəhdətinə nail olmaqdır.

## Hikmət

Bir yunan filosofu Ənuşirəvana məktub göndərir. Həmin məktubda ağlın faydaları və rolundan bəhs olunurdu. Ənuşirəvan cavab məktubunda ona minnətdarlıq etdikdən sonra yazmışdır:

Ey filosof, ağıl haqqında olan məktubun həqiqətən təqdirəlayiqdir. Məndən əvvəlki dövlət başçıları kimi, mənim də zinətim daim ağıl olmuşdur. Onsuz necə fəaliyyət göstərmək olar? Allaha ən yaxın olan şey də ağıldır. **Ağıl günəş kimidir, hər şeyə can verir**.

İnsanlardakı fəzilətin mənbəyi ağıldır. İnsan üçün ağlın əhəmiyyəti ağac üçün suyun faydası ilə müqayisə oluna bilər. Su sayəsində ağac yaşıllaşır, böyüyür və meyvə əmələ gətirir. Susuz ağac isə quruyur və onu kəsirlər. İnsan da elədir: ağlı yetkin, canı sağlam olduqca, dostluğu xeyirli, yoldaşlığı faydalı olar. Lakin o, ağılsız olar və cəhalət

ona üstün gələrsə, bütün həyatını puç edər. Nəticədə ölümdən başqa heç nə onu rüsvayçılıqdan qurtara bilməz.

Ağılla hərəkət etməsəm və ona tabe olmasam, necə nicat tapa bilərəm? **İstər idarəçilər, istərsə də xalq üçün öz ziyası ilə xeyiri şərdən, yaxşını pisdən, halalı haramdan, həqiqəti yalandan ayırmağa kömək edən ağıldan yaxşı heç nə yoxdur.**

Bəzorq Mehr demişdir: «**Şücaət və ağıl kamil insanın əsas xüsusiyyətləridir**».

## Hikmət

Loğman həkim demişdir: «Elmi ağıl ilə müşayiət olunmayan və ictimai, elmi-praktiki faydası olmayan elm adamını alim hesab etmək olmaz».

Ənuşirəvan Bəzorq Mehrdən soruşmuşdur: «**Ağıllı olmasını ən çox istədiyin adam kimdir?» O cavab vermişdir: «Düşmənim**». Ənuşirəvanın «Nə üçün?» sualına Bəzorq Mehr: «Mənə qarşı düşmənçiliyindən əl çəksin deyə» cavabını vermişdir.

**Ağıldan başqa hər şeyin artığı təhlükə yaradır.** Yalnız ağıl çoxaldıqca ona sahib olanların hörmət və izzəti artır, dostları çoxalır. Ona görə də, ağıl insana daha çox lazımdır.

Filosofların fikrincə, **hamının ağla, ağlın isə tətbiqə, sınağa ehtiyacı vardır. Ağıldan böyük var-dövlət, nadanlıqdan pis məhru-**

**miyyət yoxdur. Elmi çox olanın ağla ehtiyacı daha böyükdür.**

Müdriklər demişlər ki, **ağıl ordunu idarə edən sərkərdə kimidir və onun əsgərləri: qavrayış, hafizə, təfəkkür, idrak və ruhdur. Ağıl ruhun sevincidir. Vücud onların sayəsində fəaliyyət göstərir. Ağıl ruhun işıqlandığı çıraqdır. Oradan bədənin bütün əzalarına nur yayılır. Ağıllı insan heç vaxt kədərlənmə-məlidir. Çünki ağlının əhəmiyyət vermədiyi bir bir işi görmür. Sonu əzab-əziyyət və bədbəxtliklə nəticələnə biləcək hadisələrə imkan vermir. Öz təqsiri ucbatından deyil, Allahın qəzavü-qədəri kimi qarşısına çıxan həyat sınaqlarına isə səbr edir.**

İbn Abbasa sual vermişlər:

- Ağıl daha xeyirlidir, yoxsa ədəb?

- Ağıl. Çünki **ağıl Allahın lütfü, ədəb isə bəndənin nailiyyətidir** – deyə o cavab vermişdir.

Abdulla ibn Mübarək də həmin suala eyni məzmunlu cavab verdikdə, ondan soruşmuşlar:

- Siz ağıl deyərkən məhz nəyi nəzərdə tutursunuz?

O cavab vermişdir:

- Elm öyrənərək ona əməl etməyi.

**Həzrəti Peyğəmbər (s) demişdir:**

**«Allahın bəndələrinə verdiyi ən xeyirli şey ağıldır»**.

Bir nəfər Evklidə demişdir: «Son nəfəsimədək nəfsimlə mübarizədən əl çəkən deyiləm». O isə: «Qəlbimdəki kini çıxarmadan rahatlıq tapa bilmərəm» deyə münasibətini bildirmişdir.

Həkim demişdir: «**Leş iyi havanı korladığı kimi, cahil insan da cəmiyyəti korlayır**».

Həkimdən «Ağıl nədir?» deyə soruşularkən, o «ağıl aşağıda sadalananları bir-birindən ayıran bənddir» cavabını vermişdir.

«Əgər ağıl olmasaydı, tövhid və şirk, fəaliyyət və fəaliyətsizlik, inam və şübhə, qurtuluş və bəla, səxavət və xəsislik, mənəvi paklıq və əxlaqsızlıq, təvazökarlıq və təkəbbür, dostluq və düşmənçilik, tənqid və tərif, səhv və qəsd, həya və abırsızlıq, həqiqət və yalan, ləyaqət və nakəslik, işıq və zülmət, kərəm və maddi zənginlik, dözüm və acizlik, bilik və qəflət, razılıq və həsəd, fəzilət və qəbahət, zülm və nicat, müdriklik və səfehlik kimi dəyərlər, dünyada çox şey bir-birinə qarışardı».

Kitabın sahibi demişdir: «**İnsani keyfiyyətlərin başlıcası ağıldır, elm də, əməl də məhz onun sayəsində bərqərar olur**».

## S u m m a r y

In the book a translation of the definite parts from the works “Hey son”, “Admonitions to the rulers” bu the prominent representative of Islamic culture, philosophy and public thought, influential scholar and philosopher, famous in the world as Imam Gazali, Hujjatulislam, Zeynaddin abu Hamid Mahammad al-Gazali, is presented.

The purpose of bringing up this work is to remind once more on the decisive role of human factor considered as an actual problem of all the times and forcing us to think over the responsibileties of the moves made in the different spheres of life at present too.

The God created the world and offered it to a man for use. The profit of nature, society and cognition comes out from the proper attitude to them. This attitude is told to the mankind through the sacred books. Sometimes a man, free being, forgets about his responsibility as a servant or approaches to life from the standpoint of his own mind and spirit ideals. When the problems arise, man addresses to wisdom again. In thoughts and ideas, extracted from the wisdom treasury of Abu Hamid Gazali deserved the title Hijjatulislam Zeynaddin for his loyalty to the Islamic values and deed, a man`s essence and nature, his ways of perfecting, responsibilities before the world are put forward, the ways of achiving the happiness in this or that world are shown.

**Dizayner:** Fariz Məhərrəmov
**Operator:** Zümrüd İbrahimova
**Korrektor:** Sərxan Haqverdiyev

~~~~~~~~~~~~~~~~~~~~~~~~~

Çapa imzalanmışdır: 14.11.2011.
Formatı: 60x84 $\frac{1}{16}$. Həcmi: 5 ç.v.
Sifariş 29. Tiraj 300.
«**Təknur**» MMC-nin mətbəəsində
hazır elektron variantdan çap olunmuşdur.

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

**Mətbəənin direktoru:** Ələkbər Məmmədov

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

Mətbəə kitabın məzmununa görə
heç bir cavabdehlik daşımır!

~~~~~~~~~~~~~~~~~~~~~~~

**Ünvan**: Bakı ş., H.Cavid pr., 31
**Telefon**: 497-59-64